# BEŞİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# IX SESSİYASI İCLASININ

# PROTOKOLU № 69

*Milli Məclisin iclas salonu.*
*31 may 2018-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***O.Əsədov*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 109 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.02 dəq.) |
| İştirak edir | 107 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Mikayıl Cabbarov**, Azərbaycan Respublikasının vergilər naziri.

**Səfər Mehdiyev**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

* * *

**Azər Bayramov**, Azərbaycan Respublikası maliyyə nazirinin müavini.

**Sevinc Həsənova**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

* * *

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Adil Məhərrəmov**, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini.

* * *

**Fazil Fərəcov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi haqqında.
2. Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.
3. Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).
4. "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.
5. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.
6. "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.
7. "Notariat haqqında" Azərbaycan Respublikasının

Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

8. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

9. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

10. "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

11. "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

12. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

13. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

14. "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

15. "Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

16. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

17. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

18. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

19. Azərbaycan Respublikasının 1994-cü il 8 fevral 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

20. "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə.

21. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

22. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

23. Azərbaycan Respublikası Milli Məclisi Gənclər və idman komitəsi sədrinin seçilməsi haqqında.

24. Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
| Lehinə | 106 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**1. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Qüdrət Həsənquliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Vahid Əhmədov, Vüqar Gülməmmədov, Əli Məsimli, Siyavuş Novruzov, Fərəc Quliyev, Fazil Mustafa, Tahir Kərimli, Qənirə Paşayeva, Tahir Mirkişili, Fəzail İbrahimli, Qüdrət Həsənquliyev, Azər Bayramov, Mikayıl Cabbarov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**3. Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli, Ziyafət Əsgərov, Siyavuş Novruzov, Məlahət İbrahimqızı, Zahid Oruc, Qənirə Paşayeva

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**4. “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Eldar İbrahimov, Elmira Axundova, Əli Məsimli, Qüdrət Həsənquliyev, Hikmət Məmmədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.14 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.15 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**6. "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Eldar İbrahimov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.18 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**7. "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.19 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**8. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Eldar İbrahimov, Aqil Abbas

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.23 dəq.) |
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

**9. “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyafət Əsgərov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.25 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

**10. “Poçt haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.26 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

**11. "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.26 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**12. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.27 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**13. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi**

**barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.27 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**14. "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.28 dəq.) |
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**15. "Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 14.28 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

**16. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 14.30 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**17. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 14.32 dəq.) |

| | |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**18. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.34 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**19. Azərbaycan Respublikasının 1994-cü il 8 fevral 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.35 dəq.) |
|---|---|
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**20. “Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.38 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**21. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.40 dəq.) |
|---|---|
| Lehinə | 92 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**22. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Elmira Axundova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.46 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**23. Azərbaycan Respublikası Milli Məclisi Gənclər və idman komitəsi sədrinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.47 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**24. Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Kamran Nəbizadə, Sona Əliyeva

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.52 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihənin adı, preambulası, 1–8-ci maddələri qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.57 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 9–17-ci maddələr və Ətraf mühitə təsirin qiymətləndirilməsi tələb olunan fəaliyyət növlərinin siyahısı qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.58 dəq.) |
|---|---|
| Lehinə | 96 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.58 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*31 may 2018-ci il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***O.Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri! Hörmətli millət vəkilləri, xahiş edirəm, qeydiyyatdan keçək.

| **Qeydiyyat** | (saat 12.02 dəq.) |
|---|---|
| İştirak edir | 107 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasımıza başlaya bilərik. Bugünkü gündəliyimizdə 24 məsələ var. Gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik təsdiq edildi. Gündəliyin 1-ci məsələsi –“Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli cənab Sədr! Hörmətli həmkarlar, bir müddət əvvəl hörmətli Valeh müəllimin rəhbərliyi ilə Ələt azad iqtisadi zonası haqqında qanun layihəsi Milli Məclisə təqdim edildi, geniş və ətraflı ictimai və parlament müzakirələri nəticəsində qəbul olundu. Amma bu qanunun tətbiqi ilə bağlı onlarca digər qanuna da əlavələr və dəyişikliklər nəzərdə tutulur. Hazırda parlamentdəki işçi qrupu bunun üzərində iş aparır. Amma bu işin sürətləndirilməsi ilə bağlı məhdudiyyətləri nəzərə alaraq, bizim komitə “Normativ hüquqi aktlar haqqında” Qanuna bir əlavə təklif edir. Təklif olunur ki, Qanunun yeni 5.4-cü maddəsi mövcud olsun: “Ələt azad iqtisadi zonasının ərazisində “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda bu Konstitusiya Qanunundan fərqli hüquqi tənzimləmə tətbiq edilir və həmin zonanın fəaliyyəti ilə bağlı qəbul edilmiş aktlar azad zona daxilində məcburi hüquqi qüvvəyə malikdir”.

Hörmətli cənab Sədr, hörmətli həmkarlar! Qeyd etməliyəm ki, bu məsələ ilə bağlı komitədə geniş müzakirə olmuşdur. Müzakirədə Valeh müəllim də iştirak etmişdir. Qanunun Konstitusiyaya uyğunluğu ilə bağlı fərqli fikir də səslənmişdir. Amma bizim komitə üzvlərinin əksəriyyətinin birmənalı mövqeyi ondan ibarətdir ki, bu Qanun Azərbaycan Konstitusiyasına tam uyğundur. Ümumiyyətlə, nəzəriyyədə eksterritorial anlayışı mövcuddur. O

cümlədən "Ələt azad iqtisadi zonası haqqında" Qanun Azərbaycan vətəndaşlarının hüquqlarının pozulmasına deyil, əksinə, daha səmərəli müdafiəsinə xidmət edir. Odur ki, həmkarlarımdan xahiş edirəm ki, qanun layihəsini müdafiə edib ona səs versinlər. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, cənab Sədr. Hörmətli qonaqlar, hörmətli millət vəkilləri, media nümayəndələri! Ələt azad iqtisadi zonası haqqında qanun layihəsi müzakirə olunarkən mən söyləmişdim ki, doğrudan da, belə azad iqtisadi zonanın yaradılması Azərbaycan üçün son dərəcə həyati əhəmiyyətli məsələdir və bunu alqışlamışdım. O cümlədən qanun layihəsinin müəlliflərinə də öz dərin minnətdarlığımı bildirmişdim. Amma, eyni zamanda, söyləmişdim ki, qanunda müəyyən müddəalar Azərbaycan Respublikasının Konstitusiyası ilə ziddiyyət təşkil edir.

Konstitusiyanın 147-ci maddəsinin III hissəsinə görə, Azərbaycanda qanunvericilik sisteminin əsasını Azərbaycan Respublikasının Konstitusiyası təşkil edir, 94-cü maddəsində Milli Məclisin müəyyən etdiyi ümumi qaydalar nəzərdə tutulur və həmin qaydalara görə, əmək qanunvericiliyinə, ekoloji məsələlərə dair ümumi qaydaları müəyyən etmək yalnız və yalnız Milli Məclisin səlahiyyətinə aid edilir. Biz indi Konstitusiya Qanununda dəyişiklik etməklə, hətta Azərbaycan ərazisinin bir hissəsində olsa belə azad iqtisadi zonanın səlahiyyətli qurumuna səlahiyyət veririk ki, bu cür ümumi qaydalar müəyyənləşdirsin. Mən söylədim ki, bu bizim Konstitusiyamıza ziddir, Milli Məclisin səlahiyyətlərinə birbaşa müdaxilədir.

Eyni zamanda, komitənin iclasında da məsələ qaldırdım, – hörmətli Valeh müəllim də iştirak edirdi, – mən

orada söylədim ki, tutaq ki, ekologiya, əmək qanunvericiliyi, əmək mübahisələrinin həlli ilə bağlı bizim bu gün qüvvədə olan qanunvericiliyimizdə nələrsə çatışmır, nələrsə beynəlxalq standartlara uyğun deyil. Əgər uyğun deyilsə, azad iqtisadi zonanın səlahiyyətli qurumunda olacaq şəxslər, doğrudan da, bu məsələlərdə Milli Məclisin üzvlərindən daha səriştəli və hazırlıqlıdırlarsa, qoy, öz təkliflərini versinlər, Milli Məclisdə biz qüvvədə olan qanunvericiliyə həmin dəyişiklikləri edək.

Hörmətli Valeh müəllim orada söylədi ki, əslində, bizim mövcud qanunvericiliyimiz beynəlxalq standartlara uyğundur, amma həcmi böyük olduğuna görə onu heç bir xarici investor oxumayacaq. Qanunun həcmi böyükdürsə, gəlin, həmin investorlar üçün qanunlardan çıxarışlar edək, onlar da həmin çıxarışlarla tanış olsunlar. Amma mən yenə də söyləyirəm, Milli Məclisin həll etməli olduğu məsələlərin ayrıca bir quruma verilməsi doğru deyil və lazımdırsa, həmin azad iqtisadi zonadakı səlahiyyətli qurumun hazırladığı qaydaları biz Milli Məclisdə də təsdiq edə bilərik. Bunun həlli yolu da belədir. Amma onlara ümumi qaydalar müəyyən etmək səlahiyyətinin verilməsi düzgün deyil.

Mən hesab edirəm ki, orada çalışan yüksək səviyyəli işçilər üçün qanunvericiliklə üstünlüklər müəyyən ediləcəksə, bu, Azərbaycanın hər yeri üçün olsun. Orada ekoloji baxımdan daha ciddi qanunlar qəbul ediləcəksə, onda elə millət vəkilləri daxil olmaqla, Azərbaycanın digər vətəndaşları üçün də başqa bölgələrdə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün qanunlar qəbul edilsin. Yox, ekoloji vəziyyət pis olacaqsa, onda biz buna niyə imkan veririk? Bütün dünyada azad iqtisadi zonalarda əsas diqqət xarici investorun ora vəsait qoymasına yetirilir. Onun

üçün  müəyyən vergi güzəştləri nəzərdə tutulur, vergidən, gömrük rüsumlarından tam azad olunur, öz mallarını Azərbaycanın digər bölgələrinə satması ilə bağlı güzəştlər də nəzərdə tutula bilər. Amma bir daha söyləyirəm, ümumi müəyyən olunan qaydalarla, əmək hüquqları, ekologiya, əmək mübahisələrinin həlli ilə bağlı güzəştlər orada nəzərdə tutula bilməz. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət müəllim, Siz bu qanun layihəsi qəbul ediləndə də bunları demişdiniz, cavab da verilmişdi.  Qanun layihəsi artıq qəbul olunub. Bu Konstitusiya Qanununa dəyişikliyi ona görə edirik ki, qəbul etdiyimiz qanun, yəni yaratdığımız azad iqtisadi zona yaxşı işləsin, səmərəli olsun. Bu  dəyişikliklər də bunların hamısını həll edir. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 2-ci məsələsi Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsidir. Hörmətli millət vəkilləri, bildiyiniz kimi, hər il ötən ilin büdcəsinin icrasını müzakirə edirik. Layihə cənab Prezident tərəfindən Milli Məclisə təqdim olunub. Hesab edirəm ki, iclasımızı həmişəki kimi quraq: İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadə çıxış etsin, Hesablama Palatasının rəyi var, Hesablama Palatasının sədri Vüqar

Gülməmmədov çıxış etsin, ondan sonra hökumət üzvləri, Samir müəllim suallara cavab versinlər. Etiraz yoxdur ki? Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Bir qayda olaraq, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının dövlət büdcəsinin tərtibi, qəbulu və icrasına nəzarət edən orqandır. Ona görə də burada qəbul edilmiş dövlət büdcəsinin hər il üzrə icrası da müntəzəm olaraq müzakirə obyekti olur. Onu qeyd etmək lazımdır ki, cənab Prezident tərəfindən Milli Məclisə təqdim olunmuş qanun layihəsi "Büdcə sistemi haqqında" Qanunun tələblərinə tam cavab verir. Vaxtında təqdim edilmişdir, vaxtında da Milli Məclisin müvafiq komitəsində müzakirə olunmuşdur.

Təbii ki, söhbət 2017-ci ilin dövlət büdcəsindən gedir. Cənab Prezident dəfələrlə qeyd etmişdir ki, 2017-ci il ölkəmizin iqtisadi həyatında, siyasi həyatında çox mühüm bir il oldu. Dünyada çox böyük, təlatümlü proseslər baş verir, qlobal risklər artır, münaqişə ocaqları azalmır, əksinə, artmaqda davam edir. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının gündən-günə genişləndiyi bir şəraitdə dünyada baş verən qlobal proseslər ölkəmizin iqtisadiyyatına da bu və ya digər dərəcədə təsir etmişdir. Bu, ilk növbədə, 2016–2017-ci illərdə dünya bazarında neftin qiymətinin azalması ilə əlaqədar olmuşdur. Bütün bunlara baxmayaraq, Azərbaycan dövləti başçısının tapşırığına əsasən hökumət, iqtisadi strukturlar, ilk növbədə Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi və büdcənin gəlirlərinin artmasına xidmət edən digər təşkilatlar birmənalı olaraq

fəal işləmiş və dövlət büdcəsinin gəlirlərinin yerinə yetirilməsini təmin etmişlər. Ən başlıca cəhətlərdən biri ondan ibarətdir ki, dövlət büdcəsinin planlaşdırılmasında, tərtibində, proqnozların verilməsində sistemlilik var. Təbii ki, ölkələrdə baş verən prosesləri obyektiv qiymətləndirmək, proqnozlarda hər nöqtəsinə qədər nəzərə almaq qeyri-mümkündür. Lakin həm bir iqtisadçı kimi, həm də komitənin adından cəsarətlə, qətiyyətlə bildirmək istəyirəm ki, təqdim olunan hesabat – Maliyyə Nazirliyi tərəfindən hazırlanan hesabat özünün məzmununa, keyfiyyətinə, əsaslandırılmasına, peşəkarlıq səviyyəsinə görə fərqlənir. Bu, eyni zamanda, Milli Məclisin üzvlərinin də maliyyə məsələləri ilə bağlı maarifləndirilməsi istiqamətində geniş imkanlar açır.

Ən başlıca cəhətlərdən biri də ondan ibarətdir ki, dövlət büdcəsi üzrə kəsir yaranmışdır. Bu kəsirin də obyektiv səbəbləri vardır. Amma, eyni zamanda, qlobal risklərin artdığı şəraitdə Azərbaycan dövlətində, cənab Prezident İlham Əliyevin tapşırıqları əsas tutularaq, sosial proqramların heç birində azalma müşahidə edilməmişdir, – mən sonra bu rəqəmləri deyəcəyəm, – strateji proqramlar həyata keçirilmişdir, beynəlxalq təşkilatlar qarşısında götürülən öhdəliklər tamamilə yerinə yetirilmişdir və gələcək üçün, yəni 2018-ci il üçün büdcənin yerinə yetirilməsi istiqamətində möhkəm əsas yaranmışdır.

Bir neçə gün bundan əvvəl biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etdik. Bu bayramda cənab Prezident dəfələrlə vurğuladı ki, Azərbaycan iqtisadiyyatı dinamik inkişaf edir, Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır, Azərbaycan iqtisadiyyatı qlobal risklərin təzyiqini aradan qaldıran bir iqtisadiyyatdır və dünyada baş verən bu qlobal risklərə baxmayaraq,

Azərbaycan iqtisadiyyatı özünün inkişafını davam etdirmişdir. Yəni əldə edilən uğurlar, həyata keçirilən iri miqyaslı layihələr imkan vermişdir ki, bu gün Azərbaycan istər rəqabət qabiliyyətliliyi indeksinə görə, istərsə də digər keyfiyyət göstəricilərinə görə dünya ölkələri içərisində nüfuzu artan, seçilən, sayılan dövlətlər sırasına daxildir. Ona görə də mən giriş sözümü qurtarıram və büdcənin maddələrinə keçirəm.

Dövlət büdcəsinin gəlirləri adətən Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilir. Dövlət büdcəsinin gəlirlərinin formalaşmasında bu iki orqanın müstəsna rolu vardır. Son illərdə əldə etdiyimiz uğurları, maliyyə vəsaitinin, ölkənin maliyyə dayanıqlığının artmasını biz heç şübhəsiz ki, ilk növbədə Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi xətti ilə, digər mənbələrdən gələn gəlirlərin artması ilə xarakterizə edirik. Azərbaycanın maliyyə dayanıqlığı, maliyyə sabitliyi var, valyuta ehtiyatları artır, bütün proqramlar icra olunur və bunların kökündə Azərbaycan dövlətinin güclü maliyyə siyasəti dayanır. Güclü maliyyə siyasətinin aparılması Azərbaycanı risklərdən qoruyur və eyni zamanda, çox təlatümlü proseslərin meydana çıxmasının qarşısını alır.

Dövlət büdcəsinin gəlirləri 15 mənbədən təmin edilir. Bu 15 mənbədən 11-i üzrə tapşırıqlar artıqlaması ilə yerinə yetirilmişdir. Fiziki şəxslərin gəlir vergisi ilə əlaqədar kəsir yaranmışdır. Bunun səbəbləri də Hesablama Palatasının rəyində, eləcə də, Maliyyə Nazirliyinin, hökumətin təqdim etdiyi hesabatda açıqlanır.

Eyni zamanda, ən vacib elementlərdən biri ondan ibarətdir ki, dövlət büdcəsinə Dövlət Neft Fondundan gələn vəsaitlərin miqdarı azalmağa meyil edir. Bu, Azərbaycan dövlətinin apardığı uğurlu siyasətin məntiqi nəticəsidir.

Çünki ulu öndər Heydər Əliyev 1999-cu ildə Dövlət Neft Fondunu yaradanda bildirmişdi ki, Dövlət Neft Fondunun gəlirləri ilk növbədə gələcək nəsillər üçün saxlanmalıdır. Bunlar strateji resurslardır. Biz strateji məqsədlər üçün o fonddan lazım olanda istifadə etməliyik.

Azərbaycanda qeyri-neft sektorunun üstün inkişafı, ixrac potensialımızın güclənməsi, aparılan sənayeləşdirmə siyasəti, aqrar siyasət ölkənin qeyri-neft sektorundan daxil olan gəlirlərin artmasını təmin edir ki, bu da birmənalı şəkildə Dövlət Neft Fondundan transferlərin azalmasına şərait yaradır.

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Mən ona görə də xüsusi olaraq vurğulamaq istəyirəm ki, dövlət büdcəsinin strukturunda baş verən bu dəyişiklik müstəsna əhəmiyyət kəsb edir. Çünki neft gəlirlərinin bir qisminin gələcək nəsillər üçün qorunub saxlanması gələcəkdə üzləşəcəyimiz problemlər qarşısında Azərbaycan iqtisadiyyatının dayanıqlığını yüksəldir, onun qlobal risklərə müqavimətini artırmağa imkan verir.

Azərbaycanın dövlət büdcəsinin gəlirlərini təmin edən amillərdən biri, heç şübhəsiz ki, Dövlət Gömrük Komitəsinin xətti ilə daxil olan gəlirlərdir. "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Qanuna əsasən Dövlət Gömrük Komitəsi üçün 2 milyard 250 milyon manat illik büdcə öhdəliyi müəyyənləşdirilmişdir. 2017-ci il ərzində 2 milyard 250 milyon manat əvəzinə 2,6 milyard manat gömrük ödənişləri toplanmış, illik büdcə proqnozuna 116 faiz əməl olunmuşdur. 2017-ci il ərzində idxal əməliyyatlarının həcmi 8,8 milyard dollar, ixrac əməliyyatlarının həcmi 15,3 milyard dollar təşkil etmişdir.

2017-ci il ərzində əlavə dəyər vergisindən azadol-

maların həcmi ümumi idxalın həcminin 30-35 faizini, idxal rüsumu üzrə azadolmaların həcmi isə 55-60 faiz təşkil etmişdir. Mən burada bir məsələni qeyd etmək istəyirəm. Cənab Sədr Oqtay müəllim də bizə tapşırmışdı ki, bunları araşdıraq. Azadolmalar nə qədərdir? İstər Dövlət Gömrük Komitəsi xətti ilə, istərsə də Vergilər Nazirliyi xətti ilə bu azadolmaları araşdırmalıyıq, onların azad olunan təşkilatların göstəriciləri ilə müqayisəsini aparmalıyıq. Baxmalıyıq ki, bu azadolmalar iqtisadi artıma nə dərəcədə təsir edir. Belə qiymətləndirmələr aparılsa, şübhəsiz ki, Azərbaycanda vergi yığma bazası da əhəmiyyətli dərəcədə genişlənər. Çünki azadolmalar obyektiv zərurətdir. Bunlar texnoparklardır, sənaye parklarıdır, zonalarıdır, azad iqtisadi zonalardır.

Amma elə məsələlər də var ki, onların bugünkü mərhələdə azadolmaya bəlkə də ehtiyacı yoxdur. Ona görə bizim komitə belə hesab edir və müzakirələrdə də bildirildi ki, biz azadolmaları araşdırmalıyıq, onların obyektiv qiymətləndirilməsini aparmalıyıq. Bu qiymətləndirmədən sonra Milli Məclis hökumət qarşısında məsələ qaldıra bilər ki, biz burada bu qədər itiririk. Ümumiyyətlə, dünya ölkələri ilə müqayisə etmək lazımdır. Çünki biz keçid dövrünü qurtarmışıq, yeni iqtisadiyyat qururuq, müharibə şəraitində yaşayırıq, sənayeləşdirmə siyasətini uğurla aparırıq. Təbii ki, burada azadolmalar olmalıdır, amma xüsusilə də ən müasir yeni texnologiyaların, avadanlıqların respublikaya gətirilməsi, eyni zamanda, əhalinin sosial müdafiəsi ilə əlaqədar məsələlər nəzərə alınmalıdır.

Qeyd etmək lazımdır ki, xarici iqtisadi fəaliyyət iştirakçıları tərəfindən ölkəyə idxal edilən malların qanuna uyğun olaraq gömrük ödənişlərindən azad olunmasının

ümumi həcminin sabit qalmasına baxmayaraq, son aylarda Dövlət Gömrük Komitəsi tərəfindən ölkə ərazisinə idxal olunan və ölkədən ixrac olunan malların gömrük rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi sahəsində mühüm irəliləyişlər əldə edilmişdir. Bütövlükdə hesab edirik ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 aprel tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasında bir sıra idxal-ixrac əməliyyatları üzərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən birgə nəzarət mexanizminin tətbiqi və bu işə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Vergilər Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Dövlət Gömrük Komitəsinin cəlb edilməsi, mən deyərdim ki, fundamental məsələdir. Çünki biz dəfələrlə bu barədə Milli Məclisin müzakirələrində danışmışıq, hörmətli millət vəkillərimiz məsələlər qaldırıblar. Bütövlükdə belə bir nəzarət mexanizminin yaradılması Azərbaycanın beynəlxalq aləmdə imicinin artırılması üçün çox vacib amillərdən biridir.

Mən, eyni zamanda, onu demək istəyirəm ki, hazırda Vergilər Nazirliyi Vergi Məcəlləsində müəyyən dəyişikliklər edilməsi ilə bağlı təkliflər hazırlayır. Hesab edirəm ki, Vergi Məcəlləsinə edilən dəyişikliklər, yenə deyirəm, ilk növbədə vergi ödəyicilərinin sayının artmasına yönəlməlidir. Çünki biz gərək vergi mədəniyyətini yüksəldək, əmək münasibətlərini təkmilləşdirək, hələ də qeydə alınmayan işçilərin sayını minimuma endirək. O zaman bizim vergi daxilolmalarımız heç bir vergi yükünü artırmadan xeyli yüksələ bilər ki, bu da bütövlükdə ölkənin maliyyə imkanlarının genişlənməsinə əhəmiyyətli dərəcədə təsir edər.

Dövlət büdcəsinin xərclərinə gəldikdə, dövlət büdcə-

sinin xərcləri 17 milyard 19 milyon manat proqnoza qarşı 17 milyard 594 milyon manat olmuşdur, yəni icra 98,1 faizdir. Hörmətli millət vəkilləri, bilirsiniz, hər il sizə bu barədə məlumatlar verilir və hesabatlarla tanış olanda görürsünüz ki, bəzən 94 faiz, bəzən 95 faiz, bəzən 96 faiz olur. Amma büdcə xərclərinin 98,1 faizinin icra edilməsi Azərbaycanın dövlət büdcəsinin dayanıqlığını, proqnozların düzgün hazırlanmasını, eyni zamanda, icra mexanizminin ildən-ilə təkmilləşməsini göstərir. Biz hesab edirik ki, bu da müsbət haldır.

Əsaslı və cari xərclər arasındakı nisbət əsaslı xərclərin xeyrinə dəyişmişdir. Bəzən mətbuatda da qeyd edilir, əsaslı xərclər çoxdur, cari xərclər çoxdur və sair, amma bilmək lazımdır ki, hər ilin dövlət büdcəsinin əsaslı və cari xərcləri ölkədə yaranmış iqtisadi inkişaf səviyyəsi, sosial səviyyə ilə müəyyən olunur. Bəzən sosial proqramların həyata keçirilməsinə, təmir işlərinin görülməsinə kifayət qədər ehtiyac olur. Belə bir şəraitdə cari xərclərin artmasına yol verilir, amma, eyni zamanda, əsaslı xərclərin artması da vacibdir, ona görə ki, biz yeni müəssisələr tikirik, yeni avadanlıqlar alırıq. Dövlət büdcəsi vasitəsi ilə maliyyələşən təşkilatların maddi-texniki bazasının möhkəmlənməsinə ehtiyac vardır. Ona görə də 2017-ci il büdcəsində əsaslı xərclərin artırılması obyektiv zərurətdən irəli gəlmişdir ki, bunu da müsbət addım kimi qiymətləndirmək olar.

Hesabatda bütün vəsaitlərin xərclənməsi iqtisadi təyinat, bölmələr üzrə kifayət qədər göstərilmiş, elmə, təhsilə, sosial müdafiə xərclərinə ayrılan vəsaitlərin ildən-ilə artması öz əksini tapmışdır. Sosial yönümlü xərclərin də artması təmin olunmuşdur. Cənab Prezidentin tapşırığı var, ən qlobal, ağır risklər şəraitində, neftin qiymətinin

dəfələrlə aşağı düşdüyü bir dövrdə Azərbaycanda heç bir sosial proqram dayandırılmadı, əmək haqlarının, pensiyaların vaxtında verilməsi, digər sosial müdafiə vəsaitlərinin vaxtında ödənilməsi bir daha onu göstərdi ki, Azərbaycan sosial yönümlü bazar iqtisadiyyatı qurur və burada da bütün imkanlar səfərbər edilməklə sosial müdafiə xərcləri təmin edilməlidir.

Azərbaycanda təhsilin inkişafı ilə əlaqədar hesabatda kifayət qədər materiallar vardır. Cəmi xərclər artıq 10 faiz təşkil edir. Burada çoxunuz təhsillə, ictimai elmlə məşğul olan insanlarsınız. Biz belə hesab edirik ki, gərək təhsil xərclərinin strukturunu ayrı-ayrı ölkələrlə müqayisə edək: ümumi təhsil xərcləri, ali təhsil xərcləri. Publik hüquqi şəxslər yaratdıq. Bunun nə dərəcədə düzgün olub-olmadığını zaman göstərəcək. Amma, eyni zamanda, biz təhsil xərclərinin strukturuna baxmalıyıq. Mən razılıq hissi ilə bildirmək istəyirəm ki, nəhayət, texniki peşə təhsili sistemi formalaşdı, artıq ona vəsait ayrılır. Hesab edirik ki, gələcəkdə texniki peşə təhsili üçün büdcədən daha çox vəsait ayrılmalıdır. Bu, eyni zamanda, məşğulluğun artmasını təmin edəcək.

Hörmətli millət vəkilləri, mən bir neçə məsələni də deyim. Dövlət büdcəsinin icrasında kənd təsərrüfatı bloku çox ətraflı işıqlandırılmışdır. Kənd təsərrüfatında hazırda nələr baş verir, hansı proseslər gedir, hər biriniz şahidsiniz. Rayonlardan olan deputatlar bilirlər ki, kəndlərdə ixtisaslaşma gedir, pambıqçılıq, ipəkçilik, üzümçülük, baramaçılıq, tütünçülük və digər sahələrin intensiv inkişafı istiqamətində çox cəsarətli addımlar atılır. Həmin proqramların həyata keçirilməsi üçün dövlət büdcəsində maliyyə vəsaitləri nəzərdə tutulmuşdur. Eyni zamanda, görülən işlər, dövlət büdcəsindən ayrılan dotasiyalar, subsidiyalar,

sahibkarlara verilən kreditlər artıq öz əməli nəticəsini verir. Azərbaycanın kənd təsərrüfatının ixrac potensialı artır ki, bu da gələcəkdə ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsinə müsbət təsirini göstərəcək.

Təbii ki, problemlər var. Dövlət büdcəsindən maliyyələşən təsərrüfatlar var, dövlət büdcəsi vasitəsi ilə iri dövlət təsərrüfatları fəaliyyət göstərirlər, eyni zamanda, sahibkarlığın inkişafına mane olan bir sıra məsələlər də var. Sahibkarlığa real sektorun dəstəyi artmalıdır. Bu yaxınlarda cənab Prezidentin və Mehriban xanımın iştirakı ilə Qaradağ rayonunda yaşayış kompleksi istifadəyə verildi. Bu yaşayış kompleksi tamamilə özəl sektorun hesabına tikilib və bu, bütövlükdə onu göstərir ki, özəl sektor sosial məsuliyyətini artıra bilər. Bunun üçün sahibkarlığa dəstək olmalıdır. Banklar fəaliyyətlərini gücləndirməlidirlər, banklarla yaranmış problemlər aradan götürülməlidir ki, Azərbaycan dövlətinin də üzərindən yük azalsın.

Mən çıxışımı yekunlaşdırıram. Sonuncu məsələ dövlət borcu ilə əlaqədardır. Cənab Prezident srağagün bir daha bildirdi ki, Azərbaycan dövləti xarici borcların səviyyəsinə görə dünya dövlətləri içərisində o qədər də geridə qalan ölkə deyil, əksinə, 10 ölkədən biridir ki, xarici borcunun ümumi daxili məhsula nisbəti kritik həddən qat-qat aşağıdır. Maliyyə Nazirliyi bu gün materiallar təqdim etdi. Bu xərclər, borclar hara gedir? Borcların əksəriyyəti iri miqyaslı layihələrin reallaşdırılmasına sərf olunur. Biz Cənub qaz dəhlizini kreditlərlə maliyyələşdirməsəydik, bunun izahını verə bilməzdik. Ona görə cənab Prezident çıxışında beynəlxalq təşkilatlara xüsusi təşəkkürünü bildirdi ki, onlar bizim iri miqyaslı layihələrimizi dəstəkləyirlər. Yəni bildirmək istəyirəm ki, bəzən deyirlər, xarici borcun səviyyəsi yüksəkdir, amma ölkələr var ki, xarici

borc, avadanlıq almasaq, bizimlə əməkdaşlıq etmək istəmirlər. Bunlar hamısı vacib elementlərdir. Ümumiyyətlə, dövlətin xarici siyasəti var, dövlətin xarici borclanma siyasəti kifayət qədər dəqiqdir və cənab Prezidentin bilavasitə nəzarətində olan bir məsələdir. Hökumətə tapşırılıb ki, borclanma siyasəti hazırlansın.

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Çox danışmaq istəmirəm, hesabatda bütün bu məsələlər barədə kifayət qədər materiallar vardır. Bir daha bildirmək istəyirəm ki, Azərbaycanın iqtisadi strukturları – Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Gömrük Komitəsi, Vergilər Nazirliyi səmərəli işləyirlər, Hesablama Palatasının müsbət rəyi də var. Ona görə millət vəkillərindən xahiş edərdim ki, bu icranı qəbul etsinlər. 2018-ci il bizim 100 illiyimizdir. Əminəm ki, bu yaranmış baza, 4 ayın yekunları göstərir ki, 2018-ci ildə dövlət büdcəsi uğurla icra olunacaqdır. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Ziyad müəllim. Yaxşı ki, çox danışmaq istəmədiniz. Hörmətli millət vəkilləri, məsələ 2017-ci il dövlət büdcəsinin icrası haqqındadır, büdcə haqqında deyil. Əgər etiraz yoxdursa, 5 dəqiqəyə keçək. Buyurun, Vahid Əhmədov.

**V.Əhmədov.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri, hörmətli mətbuat! Ziyad müəllim burada geniş məlumat verdi, rəqəmləri səsləndirdi. Hesab edirəm ki, 2017-ci il dövlət büdcəsinin icrasında diqqət çəkən məqamlar, yəni Dövlət Neft Fondundan olan transfertin kəskin azalması, eləcə də vergi borclarının 370 milyon manat azalması, ümumiyyətlə, keçən dövr ərzində – 2017-ci ildə manatın məzənnəsinin qorunub saxlanılması və digər məsələlər müsbət hallardır. Amma bununla bərabər, büdcənin gəlir

hissəsində müəyyən vergilərin aşağı səviyyədə yığılması, xüsusən fiziki şəxslərin gəlir vergisinin, əlavə dəyər vergisinin, sair vergi daxilolmalarının, ödənişli xidmətlərdən daxilolmaların təxminən 80-85 faiz səviyyəsində yığılması müəyyən suallar doğurur. Yəqin ki, bu barədə lazımi məlumatlar veriləcək.

Ümumiyyətlə, büdcədə qeyri-neft sektorunun 52 faiz, neft sektorunun 47 faiz olması da müsbət addım kimi qiymətləndirilməlidir. Amma büdcədə kredit qoyuluşunun 2016-cı ilə nisbətən 25 faiz azalması, əlbəttə, çox böyük suallar doğurur. Keçən il plana uyğun olaraq biz ilk dəfə ümumi daxili məhsulda 0,1 faiz artıma nail olmuşuq. Amma bu artımın bir-iki bənd artıq olması üçün kredit qoyuluşu, əlbəttə, çox vacib məsələlərdən biridir. Kredit qoyuluşunun azalmasının əsas səbəblərindən biri, – burada Ziyad müəllim də qeyd etdi, – bank sistemində yaranmış ciddi problemlərlə əlaqədardır. Azərbaycanda bu gün 30 bank fəaliyyət göstərir. Bunların yalnız 4-5-də kapitallaşma məsələsi həll olunub. Yəni Paşa Bank, Rabitəbank, Kapital Bank, Azərbaycan Beynəlxalq Bankı – bunlar Azərbaycanın dövlət büdcəsi hesabına müəyyən qədər sağlamlaşdırıldılar, amma qalan banklarda kapitallaşma məsələsi faktiki olaraq öz həllini tapmayıb və bankların sağlamlaşdırılması prosesi Azərbaycanda, əslində, həyata keçirilmir. Biz banklar, əhali və hüquqi şəxslər arasında normal şərait yarada bilməsək, Azərbaycanda ümumi daxili məhsulun artımında, əlbəttə, ciddi problemlər yarana bilər.

Ümumiyyətlə, neftin qiymətinin 2017-ci ildə təxminən 55 dollar olması, dövlət büdcəsində 40 dollar nəzərdə tutulması da müəyyən qədər öz müsbət təsirini göstərmişdir. Həmçinin yerli gəlirlərin yerinə yetirilməsi, 33

rayonun mərkəzi gəlirlərdən, ümumiyyətlə, istifadə etməməsi Azərbaycanın dövlət büdcəsində müsbət irəliləyişin olmasını bir daha göstərir.

Bununla bərabər, mən bir sıra məsələlərə öz münasibətimi bildirmək istəyirəm. Birincisi, qeyd etdim ki, 2017-ci ildə ümumi daxili məhsulda cəmi 0,1 faiz artım olub. Burada izah edirlər ki, ümumiyyətlə, bu artımın az olmasında məqsəd vergi güzəştlərindən azadolmaların məbləğinin yüksək olmasıdır. Əlbəttə, vergi güzəştləri 2015-ci ildə də, 2016-cı ildə də var idi. 2017-ci ildə biz elə ciddi vergi güzəştlərinə getməməliyik. Mən elə hesab edirəm ki, ümumiyyətlə, dövlət büdcəsində vergi güzəştlərinin məbləği də aşkar göstərilməli və bilinməlidir ki, 2017-ci ildə biz nə qədər azadolmalar etmişik.

İkincisi, istifadə olunmayan kənd təsərrüfatı torpaqları ilə əlaqədar məsələ. Yəni qanunvericilikdə bununla əlaqədar müəyyən dəyişikliklər etmişik. 2017-ci ildə bundan dövlət büdcəsinə nə qədər vəsait daxil olduğu qeyd edilməyib.

Nizamnamə fondunda dövlətin payı olan müəssisələrin ödənilməli olan dividendlərinin ilbəil, ümumiyyətlə, ödənilməməsi məsələsi. Bu məsələ də gündəmdə olmalı və vaxtında yoxlanılmalıdır. Niyə müəssisənin ödənilməli dividendləri həmin müəssisələr tərəfindən ödənilmir?

Digər bir məsələ mənzil-kommunal təsərrüfatı ilə əlaqədardır. Bu sistemdə şəffaflıqdan, ümumiyyətlə, söhbət gedə bilməz. Bu sistemi çox ciddi nöqsanlar bürüyüb. Xərclərin təyinatı üzrə işlədilməməsi, artıq ödənişlərin həyata keçirilməsi və sair. Mən belə hesab edirəm ki, mənzil-kommunal təsərrüfatı ilə əlaqədar yeni normativ sənədlərin qəbul edilməsinə çox böyük ehtiyac var.

Burada kənd təsərrüfatı ilə əlaqədar məsələ qeyd

olundu. Ümumiyyətlə, Azərbaycanda kənd təsərrüfatına diqqət böyükdür. 2016–2017-ci illərdə biz kənd təsərrüfatı əmlakının sığortası ilə əlaqədar məsələyə toxunmuşuq, vəsait ayrılıb. Amma çox təəssüflər olsun ki, sığorta məsələsi həll olunmur.

**Sədrlik edən.** Çox sağ olun, Vahid müəllim. Mən bir az ardıcıllığı pozdum. Hesablama Palatası böyük bir rəy hazırlayıb. Amma xahiş edirəm, bir az konkret. Vüqar Gülməmmədov buyursun.

**V.Gülməmmədov,** *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Hörmətli Sədr, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri, xanımlar və cənablar! Hörmətli Ziyad müəllimin 2017-ci ilin əsas iqtisadi meyilləri, icra edilmiş dövlət büdcəsinin parametrləri ilə bağlı məlumatları artıq təqdim etdiyini nəzərə alaraq, 2017-ci ildə dövlət büdcəsinin icrasına dair qanun layihəsini və onunla birgə təqdim olunmuş hesabatı, Hesablama Palatasının rəyini diqqətinizə çatdırmaq istərdim. Hesabat ilində qlobal iqtisadi mühit neftin dünya bazarlarında qiymətinin əvvəlki dövrlə müqayisədə artması, inkişaf etmiş ölkələrdə inflyasiyanın yüksəlməsi, dünya üzrə iqtisadi artımın gözləniləndən bir qədər çox olması, dünya üzrə məcmu borcun tarixdə ən yüksək həddə çatması və sair meyillərlə xarakterizə olunur.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mühüm islahatlar öz nəticələrini hesabat ilində də göstərmişdir. Belə ki, 2017-ci ilin ümumi daxili məhsulunun göstəricilərində artım müşahidə edilmiş, qeyri-neft sektoru üzrə real artım tempi 2,7 faiz təşkil etmiş, ümumi daxili məhsulda qeyri-neft sektorunun payı 62,8 faizə çatmışdır. Hesabat ilində dövlət büdcəsi həm dünyada, həm də

respublikada müşahidə edilən bu meyillər, həmçinin dövlət vəsaitlərinin nəticəli istifadəsi üzrə hesabatlılığın və maliyyə nəzarətinin gücləndirilməsi, vəsaitlərdən istifadə üzrə məsuliyyətin artırılması istiqamətində dövlət başçısının təşəbbüsü ilə qanunvericilik aktlarına edilmiş bir sıra vacib əlavə və dəyişikliklər fonunda icra edilmiş, bu amillər icra prosesinə təsirsiz ötüşməmişdir.

2017-ci ilin dövlət büdcəsinin icrası ilə bağlı qanun layihəsi və hesabatla bağlı ilk olaraq qeyd edim ki, hər iki sənəd "Büdcə sistemi haqqında" Qanunla müəyyən edilmiş vaxtda Hesablama Palatasına təqdim edilmiş və qanunla təsbit edilmiş tələblərə riayət olunmaqla hazırlanmış, qanunvericiliklə həmin sənədlərdə göstərilməsinin tələb olunduğu sahələr və istiqamətlər üzrə məlumatlar əks olunmuşdur. Bununla yanaşı, Hesablama Palatası hesab edir ki, Azərbaycan Respublikası Prezidentinin verdiyi tapşırıqların yerinə yetirilməsi təmin edilməklə, dövlət büdcəsinin icrasına dair hazırlanan hesabatlarda müxtəlif istiqamətləri əhatə edən və rəydə vurğulanan ətraflı məlumatların əks olunması beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin son nəticədə daha da yaxşılaşmasına, ölkəmizin beynəlxalq qiymətləndirmələrdə mövqeyinin yaxşılaşmasına xidmət etmiş olar.

Hörmətli millət vəkilləri! Qeyd edildiyi kimi, 2017-ci ildə dövlət büdcəsinin gəlirləri proqnozlaşdırılmış məbləğlə müqayisədə 98,5 faiz səviyyəsində icra edilmişdir. Ümumiyyətlə, ümumi daxili məhsulun əvvəlki illə müqayisədə nəzərəçarpan artımı hesabat ilində dövlət büdcəsinin gəlirlərinin bir qədər azalması, gəlirlərin göstəricisinin ümumi daxili məhsula nisbətən 23,5 faiz səviyyəsində icrası ilə nəticələnmişdir. Hesabat ilinin ümumi büdcə gəlirlərinin 46,8 faizi ilin birinci yarısında,

53,2 faizi ilin ikinci yarısında daxil olmuşdur.

Dövlət büdcəsinin gəlirlərinin iki aspekti ilə bağlı nəticələri diqqətə çatdırmaq istərdim. Bu, vergi gəlirləri və digər gəlirlərlə bağlıdır. Ümumiyyətlə, hesabat ilində dövlət büdcəsinin vergi gəlirləri üzrə müəyyən edilmiş proqnoz 94,1 faiz səviyyəsində yerinə yetirilsə də, bu daxilolmalar üzrə 2016-cı illə müqayisədə artım 3,5 faiz təşkil etmişdir. Dövlət büdcəsinin ümumi gəlirlərində vergi gəlirlərinin xüsusi çəkisi 4,5 faiz-bənd artaraq 2017-ci ildə 51,2 faiz təşkil etmişdir.

Vergi gəlirlərinin tərkibində fiziki şəxslərin gəlir vergisi üzrə 2017-ci il üçün müəyyən edilmiş proqnozun 10,9 faiz kəsirlə yerinə yetirilməsi, eyni zamanda, əvvəlki ilə nisbətən azalması əmək münasibətlərinin qanunvericiliyin tələblərinə uyğun rəsmiləşdirilməsi prosesinin təkmilləşdirilməsi ilə bağlı tədbirlərin gücləndirilməsini tələb edir. Bu vergi növü üzrə icra səviyyəsinə, eləcə də hesablanmış öhdəliklərin əlavə dəyər vergisinin əvəzləşdirilməsinə görə yaranan artıq ödəmə məbləğlərinin hesabına aid edilərək dövlət büdcəsinə köçürülməməsi səbəbindən muzdlu iş ilə əlaqədar gəlirlərdən verginin tam toplanmaması əsasən real sektor üzrə proqnozların icrasına təsir göstərmişdir. Vergi gəlirlərinin tərkibində xüsusi çəkisi böyük olan əlavə dəyər vergisi ilə bağlı qeyd edim ki, 2016-cı il ilə müqayisədə 2017-ci ildə ümumi daxili məhsulun, o cümlədən qeyri-neft sektorunda ümumi daxili məhsulun artımı, eləcə də ölkədaxili ümumi istehlak dövriyyəsinin nominal ifadədə artması, həmçinin digər əlaqəli iqtisadi amillərin artım dinamikası fonunda Azərbaycan Respublikasının mal, iş və xidmətlərə görə əlavə dəyər vergisi üzrə müəyyən edilmiş proqnoz 86,2 faiz səviyyəsində icra edilmişdir. Qeyd olunanlar bu vergi

növü üzrə daxilolmaların məbləğinə təsir edən qeyri-iqtisadi amillərin araşdırılmasını və bu amillərin təsirinin neytrallaşdırılması məqsədi ilə vergi-büdcə siyasətində müvafiq tədbirlərin nəzərdə tutularaq icrasını zəruri edir.

Ümumiyyətlə, qeyd edim ki, hesabat ilində əlavə dəyər vergisinin uzunmüddətli dinamikası Vergilər Nazirliyi xətti ilə əlavə dəyər vergisinin azaldığını, Dövlət Gömrük Komitəsi xətti ilə isə, əksinə, artdığını göstərir. Digər gəlirlər üzrə proqnoz artıqlaması ilə icra edilmiş, lakin 2017-ci ildə mütləq ifadədə bu gəlirlər 2016-cı il ilə müqayisədə 13,6 faiz az olmuşdur. Əvvəlki illərlə müqayisədə azalmanın əsas səbəbi digər gəlirlərin 75,6 faizini təşkil etmiş Dövlət Neft Fondundan transferin həcminin azalması ilə əlaqədardır. Digər gəlirlərin tərkibində Dövlət Neft Fondundan daxilolmaların məbləğini nəzərə almadıqda isə digər gəlirlərin 116,7 faiz səviyyəsində və əvvəlki il ilə müqayisədə 14,1 faiz çox icra edildiyini qeyd etməliyik. Eyni zamanda, dövlət büdcəsinin qeyri-neft gəlirlərinin qeyri-vergi daxilolmaları üzrə proqnozlaşdırılma xətalarının da olması müşahidə edilmişdir. Digər tərəfdən, dövlət büdcəsinin gəlirlərinin icrası mərhələsində real sektorda yığımı təmin edən dövlət qurumlarının inzibatçılığının proqnoz hədəflərin icrası üzərindəki təzyiqlərinin maliyyə-vergi intizamının gücləndirilməsi istiqamətinə yönəldilməsi məsələlərinin həlli aktual olaraq qalmaqdadır. Nəzərə almalıyıq ki, real sektorda təsərrüfat subyektlərinin könüllü bəyan etmə və ödəmə səviyyəsinin yüksəldilməsi üçün inzibatçılığın maliyyə-vergi intizamının gücləndirilməsi üzərində daha çox səfərbər olunmasını zəruri edir. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun qarşıya qoyulmuş məqsədlərə qısa müddət ərzində nail olunması məqsədi ilə

dövlət büdcəsinin gəlirlərinin formalaşması və icrası prosesində iştirak edən inzibatçı qurumların fəaliyyətində koordinasiya işləri daha da gücləndirilməlidir.

Hörmətli millət vəkilləri, 2016-cı il ilə müqayisədə 2017-ci ilin dövlət büdcəsi xərclərində cüzi azalma müşahidə edilmiş və xərclər 98,1 faiz səviyyəsində icra olunmuşdur. Bu da ümumi daxili məhsulda büdcə xərclərinin payının cəmi 25,1 faiz təşkil etdiyini göstərir. Ümumilikdə, büdcə xərclərinin 46,6 faizi ilin birinci yarısında, 53,4 faizi ilin ikinci yarısında icra edilmişdir. 2017-ci ilin dövlət büdcəsinin tətbiqi haqqında cənab Prezident tərəfindən imzalanmış fərmanda fiskal intizamın gücləndirilməsi ilə əlaqədar müəyyən etdirilmiş tapşırıqlara müvafiq olaraq hesabat ilində büdcə xərclərinin il ərzində icrasına dair bölgüyə riayət edilməsinə nəzarət təmin olunmuşdur.

2017-ci ilin büdcə xərclərinin icrasına təsir edən amilləri də diqqətinizə çatdırmaq istərdim. Son illərdə büdcə qanunvericiliyində edilmiş dəyişikliklərin xərclərin icrasına təsiri ilk növbədə qeyd edilməlidir. Bu dəyişikliklər hesabatlılığın gücləndirilməsində mühüm addım olmuşdur.

Hesabat ilində digər bir məqam manatın xarici valyutalara nisbətən məzənnəsinin dəyişməsində fərq məbləğinin yaranmasıdır ki, bu da mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq qanun layihəsində ayrıca sətir ilə göstərilmişdir.

Hörmətli millət vəkilləri, hesabat ilində dövlət büdcəsinin kəsiri 1,1 milyard manat və ya təsdiq olunan yuxarı həddən 8,3 faiz az təsdiq edilmişdir. Büdcə kəsirinin yarıdan çoxu, yəni 54,4 faizi vahid xəzinə hesabının qalığı, 9,9 faizi özəlləşmədən daxil olan vəsait, qalan 35,7 faizi isə daxili və xarici borcalma hesabına

maliyyələşdirilmişdir. 2017-ci ilin sonunda dövlət borcunun ümumi məbləği 17 milyard manat təşkil etmişdir. Bu, strateji valyuta ehtiyatlarımızdan bir neçə dəfə azdır və məcmu dövlət borcunun ümumi daxili məhsula nisbətinin inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üçün beynəlxalq təcrübədə qəbul edilmiş həddən, yəni indikatordan nəzərəçarpacaq dərəcədə aşağı olması ölkəmizdə dövlət başçısı tərəfindən dayanıqlı borc siyasətinin yürüdüldüyünü bariz şəkildə ifadə edir. Ümumilikdə, dövlət borcunun 93,9 faizi xarici dövlət borcuna, 6,1 faizi daxili dövlət borcuna aid edilmişdir.

2017-ci il ərzində xarici dövlət borcunun valyutalar üzrə bölgüsündə müəyyən dəyişikliklər olmuşdur. Xarici dövlət borcunun valyutalar üzrə bölgüsünə nəzər yetirdikdə qeyd etmək lazımdır ki, ABŞ dolları ilə cəlb olunması nəzərdə tutulan borcun məbləği hesabat ilinin əvvəli ilə müqayisədə 30,2 faiz yüksələrək faktiki xarici borcun ABŞ dolları ilə ifadəsində 44,8 faiz artımına şərait yaratmışdır. Eyni zamanda, bu meyil kredit sazişlərinin müddətlər üzrə bölgüsünə də təsirsiz ötüşməmişdir. Belə ki, kredit sazişlərinin bölgüsünə 10 ildən 20 ilə qədər olan dövrlərdə borcun həcmi faktiki xarici borca xüsusi çəkisi 40 faizdən 51,2 faizə qədər yüksəlmişdir. Fiskal dayanıqlığın təmin edilməsində əsas şərt olan borc dayanıqlığının təhlili göstərir ki, ümumilikdə bu istiqamətdə ölkəmizin mövqeyi qənaətbəxşdir.

Hörmətli millət vəkilləri, müzakirələrdə 2017-ci ilin dövlət büdcəsinin icrası ilə bağlı qanun layihəsinin müzakirəsində Hesablama Palatasının müsbət rəyini də nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Vüqar müəllim. Buyursun Əli Məsimli.

**Ə.Məsimli.** Çox sağ olun, cənab Sədr. 2017-ci ilin büdcəsinin təhlili zamanı həmişə daha çox tənqid etdiyimiz 3 məqama müsbət münasibət bildirmək istəyirəm. Birinci, 2017-ci ilin büdcəsi neft bumundan bu günədək neft amilindən ən az asılı olan büdcədir. İkinci daha çox tənqid etdiyimiz məqam isə Dövlət Neft Fondundan vəsaitin həmişə daha çox alınmasıdır. 2017-ci ilin büdcəsi 2010-cu ildən bu günədək Dövlət Neft Fondundan daha az vəsaitin, transferin alındığı büdcədir. Üçüncü məqam isə ondan ibarətdir ki, büdcənin vəsaiti daha çox sonuncu rübdə, bir də dekabrda xərclənirdi. Müqayisə üçün qeyd edək ki, 2016-cı ilin sonuncu rübündə 40 faiz, 2017-ci ildə isə 27 faiz, 2016-cı ilin dekabr ayında 23 faiz, 2017-ci ilin dekabr ayında isə 13 faiz xərclənib. Bu da büdcədən xərclənmədə proporsionallığın xeyli dərəcədə təmin edilməsində müsbət addım kimi qiymətləndirilir.

Eyni zamanda, bir sıra məqamları da qeyd etmək istəyirik. Birinci, Azərbaycan Respublikasının Prezidenti büdcə ilə bağlı məsələlər müzakirə olunan zaman həmişə qeyd edib, elə işləmək lazımdır ki, qeyri-neft sektorundan daxil olan vəsaitlər, heç olmasa, cari xərclərimizi ödəmək üçün yetərli olsun. Çox təəssüf ki, təkcə 2017-ci ildə deyil, ondan xeyli əvvəlki və sonrakı illərdə də bu prinsipə əməl edilmir. Yenə də qeyri-neft sektorundan büdcəyə daxil olan vəsait cari xərclərdən 1,7 milyard manat və ya 16 faiz azdır. Hesab edirəm ki, iqtisadiyyatın səmərəliliyini artırmaqdan ötrü bu istiqamətdə mütləq ciddi addımların atılmasına ehtiyac var.

İkinci məsələ: Azərbaycanda büdcə sisteminə, büdcəyə parlament nəzarətinin artırılması istiqamətində addımlar atılmasını vacib hesab edirik. Bunun üçün qanunvericilik bazası möhkəmləndirilməli, dövlət maliyyə nəzarəti haq-

qında model qanun, ondan irəli gələn qanunlar, büdcə məcəlləsi və sair qəbul edilməlidir. Eyni zamanda, daha səmərəli nəzarət mexanizmi həyata keçirilməlidir.

Hesablama Palatasının da hesabatlarından görünür ki, bu idarə hansı təşkilatı yoxlayırsa, orada büdcə vəsait-lərindən xeyli dərəcədə sui-istifadə halları ortaya çıxır. Düzdür, bu, çox səthi formada, az göstərilir, amma daha dərin tədqiqatlar aparılsa, görərik ki, bu sahədə çoxlu yeyinti, kənarlaşma və sair var. Ona görə də büdcəyə parlament nəzarətinin artırılması istiqamətində addımlar atılmalıdır.

Bir də qeyd etmək lazımdır ki, bəzi kəsirlərin səbəbləri ondan ibarətdir ki, statistikada problemlər var. Məsələn, iş yerlərinin açılmasında olan problemlər indi Dövlət Sosial Müdafiə Fondunda çətinliklər yaradıb və bu, fiziki şəxslərdən gəlir vergisində, kəsirdə mühüm rol oynayır. Bunları aradan qaldırmasaq, fəsadlar getdikcə artacaq və bir sıra problemlər yaranacaq. Ona görə də qeyri-neft sektorunun, qeyri-neft sənayesinin, kənd təsərrüfatının və bununla bağlı bir sıra xidmət sahələrinin inkişafı istiqamətində ciddi addımlar atılmalıdır. Oraya sərmayələr qoymaqla, bankı iqtisadiyyatın real sektoruna bilavasitə yaxınlaşdırmaqla, bankların daha çox istehsalla bağlı sa-hələrə kredit verməsi üçün şərait yaratmaqla, eyni zaman-da, bu istiqamətdə stimullaşdırıcı tədbirləri çoxaltmaqla qeyri-neft sektorundan gələn gəlirləri, bu sektorun səmərə-liliyini, məhsuldarlığını, hesab edirəm ki, artırmaq olar. Necə ki, 2017-ci ildə Azərbaycan büdcəsində neft amili azalıb, bundan sonra ondan da yaxşı nəticələrə nail olmaq mümkündür. Əvvəlki illərin büdcəsi ilə müqayisədə 2017-ci ilin büdcəsinin müsbət məqamları daha çox olduğuna görə səs verəcəyik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Sədr. Hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri! Mən də həmkarlarım kimi bu qanun layihəsinə səs verəcəyəm və qeyd etmək istəyirəm ki, cənab Prezidentin rəhbərliyi altında 2017-ci il ölkəmiz üçün uğurlu bir il olubdur. Həmkarlarımın qeyd etdiyi kimi, büdcədə neft amilinin, neft gəlirlərinin, transferlərinin azaldılması, manatın dayanıqlığı, kənd təsərrüfatının və digər sahələrin inkişaf etdirilməsi də iqtisadiyyatın inkişafının əsas səbəblərindən biridir və büdcə vəsaitlərinin sərf olunması, istifadəsi çox yerində olan bir haldır. Bu sahədə çalışan insanlara da öz təşəkkürümüzü bildiririk.

Mən də bir neçə məqama toxunmaq istəyirəm. Xüsusilə 2017-ci ildə bir neçə mühüm hal baş verib ki, bunlardan biri neft müqavilələrinin müddətinin 2050-ci ilə qədər uzadılmasıdır. Bu, ölkəmizə verilən dəyərdir, onun iqtisadi inkişafının göstəricisidir. Ötən il həmçinin Bakı-Tbilisi-Qars dəmiryolu işə salındı. Bu da büdcə vəsaitləri hesabına başa gələn bir layihədir. Azərbaycan üçün çox önəmlidir, dövlətimiz üçün vacib olan şərtlərdən biridir. Bu cür qlobal layihələr Azərbaycanda davam etdirilir. Cənub qaz dəhlizi və digər layihələr də istifadəyə verilir. Komitə sədri hörmətli Ziyad müəllim burada 20 dəqiqə məlumat verdi, lakin bir neçə məqama aid məsələlər həm bizim üçün, həm ictimaiyyət üçün, həm də mətbuat orqanları üçün aydın olmalıdır ki, suallar yaranmasın və hökumət üzvləri də bu sahədə narahat olmasınlar. Bildiyiniz kimi, 2017-ci ildə ölkəmizdə prezident seçkiləri keçirildi və yeni hökumət formalaşdı. Bu, ciddi bir hadisədir. Hökumətin strukturunda kifayət qədər dəyişikliklər baş verdi, o cümlədən büdcənin toplanmasına, büdcə

vəsaitlərinin yığılmasına rəhbərlik edən şəxslərin vəzifədən azad edilməsi, onların yeniləri ilə əvəz olunması və sair vacib məsələlərdir. İstər mətbuatda, istərsə də cəmiyyətdə, sosial şəbəkələrdə hökumətin digər strukturları ilə bağlı büdcə vəsaitlərindən düzgün istifadə olunmaması haqqında fikirlər formalaşır. Yeni strukturlar yarandı, köhnə strukturların bir çoxu ləğv olundu, yaxud da dəyişdirildi. Təbii ki, bunlar hamısı cənab Prezidentin, hökumətin səlahiyyətinə daxil olan məsələlərdir, amma ictimaiyyəti də düşündürür.

Milli Məclisdə məsələ qaldırıldı ki, Azərbaycanın kredit faizləri çox yüksəkdir, vətəndaşlarımız bundan səmərəli istifadə edib yeni iş yerləri aça bilmir, orta, kiçik sahibkarlıq yaranmır ki, oradan büdcəyə vergilər ödənilsin, büdcənin gəliri artsın. Bununla əlaqədar 2017-ci ildə hansı işlər görülür ki, bu faiz dərəcələri aşağı düşsün, insanlar kredit ala bilsin?

Yaxşı hallardan biri ondan ibarətdir ki, cənab Prezident tərəfindən həm şəhid ailələrinə, həm də əlillərə müavinətlərin ödənilməsi ilə bağlı sərəncam verildi. Bununla yanaşı, bu qəbildən olan digər məsələlər də var ki, bunların həlli, hesab edirəm ki, öz əksini tapmalıdır.

Hökumətin tərkibindəki dəyişikliklər, bunun büdcəyə aid olub-olmama məsələsi varmı, yoxmu, biz bunlar haqqında da məlumat əldə etmək istəyirik. Əgər düzgün olmayan arqument qoyulubsa, bununla da bağlı öz fikirlərimizi bildirək. Nə həmin strukturların rəhbərləri, nə də bununla bağlı olan digər aidiyyəti qurumlar buna cavab vermir və insanlar da cavab gözləyir. Cavablar verilməlidir. Axı bu adam hansı səbəblərdən bu cür ittihamlar irəli sürür, bu cür böhtan atır, yaxud bu həqiqətdirmi? Həqiqətdirsə, cəzasını çəkməlidir, deyilsə, buna cavab veril-

məlidir və bu böhtanları atan şəxslər məsuliyyətə cəlb olunmalıdırlar. O baxımdan, mən istəyirəm ki, bu suallara cavab alım. Təşəkkür edirəm, səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Fərəc Quliyev.

**F.Quliyev.** Hörmətli Sədr, hörmətli hökumət üzvləri və həmkarlar! 2017-ci ilin dövlət büdcəsinin icrası haqqında danışanda, təbii ki, ilk növbədə, cənab Prezidentin təqdim etdiyi strateji yol xəritəsi ilə bağlı fikirlər bildirilməlidir. Bu, çox nadir bir sənəddir və hesab edirəm ki, əgər bu sənəd müəyyən qədər həyata keçirilsə idi, bir sıra ciddi məsələlər, problemlər aradan qalxmış olardı. Mən niyə "həyata keçsə idi" deyirəm? Çünki rəsmi strukturların verdiyi hesabatlardan görünür ki, bu sənədin hətta ən yaxşı icra edildiyi aylarda belə, yalnız 27-29 faizinin həyata keçməsi təmin olunubdur. Bu o deməkdir, icra strukturları, müəyyən nazirliklər bu konseptual sənədlə ayaqlaşmırlar. Əlbəttə, bunu bütün nazirliklərə şamil etmək olmaz.

Yeri gəlmişkən, qeyd edim ki, son zamanlarda cənab Prezidentin verdiyi fərmanlar, yeni Baş nazirin və nazirlərin təyin olunması xalq tərəfindən təqdirlə qarşılanıbdır. Baş nazir də daxil olmaqla, bütün o təyin edilmiş şəxslərin çox dürüst, savadlı olması, işini bilməsi və artıq ilkin mərhələdə belə ortaya ciddi nəticələr qoyması ürəkaçan məsələdir. Məsələn, vergilər nazirinin gəlişindən sonra sahibkarlara verilən dəstək, süni maneələrin aradan qaldırılması xüsusi qeyd edilməlidir. Yaxud kənd təsərrüfatı nazirinin çox müasir, yenilikçi bir kadr olduğunu hamımız bilirik və o, yeni yanaşmaları artıq tətbiq etməyə başlayıb. Amma hər halda bu sənədin tamamilə həyata keçirilməsi ilə bağlı addımlar kifayət qədər möhkəm atılmalıdır. Çünki 2018-ci ilin dövlət büdcəsinin artımının 97 faizini

yenə də neftlə bağlı gəlirlər təşkil edir. Əgər biz yenə də neftlə bağlı məsələlərə qayıtsaq, köhnə problemlər yeni formada təzahür edəcək.

Burada neftdən asılılıq qeyd olundu. Artıq büdcənin neftdən asılılığı daha kiçik rəqəmlərlə ifadə edilməyə başlayıb. Ancaq məncə, bu, yetərli sayıla bilməz. Ümumiyyətlə, bu çatışmazlıqların aradan qaldırılması üçün imkanlar var və bu məsələlərin üzərinə, sadəcə olaraq, ciddi şəkildə getmək lazımdır.

Mən bəzi məsələlərə toxunmaq istəyirəm. Məsələn, idxalın strukturunda ərzaq məhsullarının payı 11 faizdən yuxarı olubdur. Məncə, bu normal deyil. Ən pisi də odur ki, həmin ərzaq məhsullarının böyük əksəriyyəti, bəlkə də hamısı Azərbaycanda istehsal edilə bilər, yaxud istehsal edilir. Belə olan halda bizim xarici valyutanın kənara çıxması və özümüzdə istehsal oluna bilən lazımi məhsulun kənardan alınması məntiqli deyil.

İkinci  məsələ xarici ticarətdə, ixrac əməliyyatlarında özəl sektorun payı ilə bağlıdır ki, bu da çox kiçik rəqəmlərlə – 10 faizdən aşağı ifadə edilibdir. Xarici ticarətdə, idxal əməliyyatlarında isə özəl sektorun payı 75 faizdən çoxdur. Bu o deməkdir ki, qeyri-neft sektorunun xarici bazar mövqeləri yetərli deyil. Amma Prezidentimizin də öhdəyə qoyduğu əsas vəzifə ixraca üstünlük verilməsi, bizim sahibkarların daha çox istehsalla əlaqədar stimullaşdırılması və Azərbaycan brendlərini ortaya çıxarmaq üçün tədbirlər görülməsidir.

Çıxışların birində xarici borclarla bağlı danışıldı. Bizim 10 milyarda qədər borcumuz vardır. Bilirik ki, borclanma siyasəti olmalıdır, normal məsələdir. Amma 2016-cı ildə bağlanmış müqaviləyə əsasən götürülmüş borcdan təkcə bayaq sadalanan layihələrə deyil, həm də bir neçə avantü-

rist layihəyə də vəsait ayrılıbdır. Mən dəfələrlə bu məsələni qaldırmışam, yenə də soruşmaq istəyirəm ki, o avantürist layihələrə ayrılan vəsaitin geri qaytarılması üçün tədbirlər görülürmü? Çünki 2017-ci ilin büdcəsi ilə bağlı hesabatda belə bir bənd nəzərə çarpmadı. Hesab edirəm ki, bu da orada öz əksini tapmalıdır və həmin vəsaitlər geri qaytarılmalıdır.

Avantürist layihələrlə, kreditlərlə bağlı məsələlərdən danışandan sonra problemli kreditlərlə bağlı məsələyə də toxunmaq istəyirəm. Burada dəfələrlə qeyd olunubdur, lakin 2017-ci ildə hökumət tərəfindən problemli kreditlərlə bağlı ortaya bir resept qoyulmadı. Məncə, kredit verən və kredit götürən arasında münasibətlərin tənzimlənməsi və kredit götürənin yükünün müəyyən qədər azaldılması üçün əlac tapılması da vacibdir.

Sonda bir daha bildirmək istəyirəm ki, hökumətin yeni təşkil olunmuş üzvlərini yaxşı tanıyırıq. Hesab edirəm ki, səsləndirdiyim tənqidi fikirlər və bizim digər həmkarların qoyduğu məsələlər, inşallah, növbəti ildə səhmana salınacaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa.

**F.Mustafa.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Azərbaycan Beynəlxalq Bankında baş verən xaosdan və bank sektorundakı başqa problemlərdən sonra belə bir dövlət büdcəsinin bu gün bizə təqdim olunması, ortaya çıxarılması, əslində, bir qəhrəmanlıq tələb edir. Çünki bir nəfərin cinayət əməlinə görə dövlətin bu qədər vəsait ödəməsi və büdcənin də müəyyən dərəcədə boşalması səmərəli xərclərin azalmasına gətirib çıxarmışdır. Amma hesab edirəm ki, son dövrlərdə ölkə Prezidenti tərəfindən xüsusilə büdcədə və onun gəlir hissəsini təmin edən 2 qurumda – Dövlət Gömrük Komitəsində və Vergi-

lər Nazirliyində dəyişikliklər edilməsi ümid yaradır ki, həqiqətən də artıq bu məsələlərdə vergi ödəyicilərinin problemlərinin həlli istiqamətində ciddi addımlar atılacaq. Xüsusilə Vergilər Nazirliyi xətti ilə atılan bir sıra islahat xarakterli addımlar cəmiyyətdə müsbət dəyərləndirilir. Bu büdcə layihəsindən də göründüyü kimi, fiziki şəxslərin gəlir vergilərinin 89 faiz icra olunması müəyyən səbəblər-lə əlaqələndirilir. Hüquqi şəxslərin mənfəət vergisinin də normal faizlə ödənməsi neft qiymətlərinin 40 dollardan götürülməsi, real qiymətin artımı hesabına olduğuna görə bu, hələ ki, yaxşı hal kimi qiymətləndirilə bilməz. Söhbət fiziki şəxslərdən vergi sisteminin ədalətsiz olmasından deyil, onların, eləcə də hüquqi şəxslərin durumundan, Azərbaycanda sahibkarın real vəziyyətindən gedir.

Ali məktəbdə tələbələrdən 1 il dərs keçildikdən sonra imtahan götürülür. Sahibkara, vergi ödəyicisinə də bəlli bir stimullaşdırıcı dəstək verilir, sonra ondan vergi yığılır. Bu dəstək yoxdursa, ondan nəyi isə tələb etmək çox çətin olur və vergi ödəmə qabiliyyəti də xeyli aşağı düşür. Son vaxtlar bunun nümunəsini, mən burada da qeyd etmişdim, məsələn, pilot layihələrlə bağlı məsələlərdə daha çox görürük. Bu problem yaxın gələcəkdə qabarıq şəkildə üzə çıxacaqdır. 10 minlərcə insanın evi söküldü, onlara müəy-yən müavinət, kirayədə yaşama vəsaiti ödənildi və tikinti prosesləri başlandı. Bəs əvəzində nə oldu? Bu adamlara, yəni sahibkara mülkiyyət sənədi verilməlidir. Çünki ipoteka bazarını canlandırmaq üçün evlərin mülkiyyət sənədi olmalıdır ki, vətəndaşda müəyyən dərəcədə stimul yaransın. Bu, olmadı.

Rusiya bazarında tikinti materiallarının qiyməti 5 faiz, uzaqbaşı 10 faiz artır. Azərbaycanda isə birdən-birə 100 faiz qalxır. 100 faiz o deməkdir ki, sahibkar artıq nəzərdə

tutulan 1 il yarıma, 2 il yarıma o evi tikib bitirə bilməyəcək. Təmir xərclərini azaltmağa başlayacaq, binanın keyfiyyəti aşağı düşəcək və nəticədə uduzan vətəndaş olacaq. Vətəndaşın da uşağının məktəb problemi, ailəsinin gediş-gəliş məsələləri, yaşadığı məkana uyğunlaşma problemləri var, bunlar həll olunmayacaq. Ona görə də birinci növbədə bütün islahatlar, bütün addımlar vətəndaşı nəzərə alaraq həyata keçirilməlidir.

Baxın, bu gün Türkiyədə Ramazan bayramı münasibəti ilə pensiyaçılara əlavə mükafat verilməsi nəzərdə tutuldu. Çünki ən aztəminatlı təbəqə onlardır. Hər hansı tibbi müayinədən keçmək üçün pensiyaçıya nə qədər pul lazımdır? Bizdə burada göstərilən inflyasiya 12 faizdir, bazar qiymətlərinə baxanda bəlkə daha artıqdır. Amma pensiya artımı 5-6 faizi keçmir. 5-6 faizi keçmirsə, sabah kim sosial sığorta üçün vəsait ayıracaq? İndi işçi işləyir, pul yığılır, amma bu pul 10 il ərzində inflyasiyaya görə qiymətdən, dəyərdən düşür, onun ödənişi də heç cür baş vermir. Ona görə də gələcək pensiyasının yığımı üçün sosial sığorta xərclərini ödəmək vətəndaşa maraqlı deyil.

Bir sıra sosial dövlət proqramları, dövlət investisiya proqramları ilə bağlı məsələlərdə də heç bir hesabatlılıq yoxdur. Sonra təqdim edilmir ki, bunun hansı səmərəli olub, hansı yox. O baxımdan hesab edirəm ki, vətəndaşı əsas tutaraq bu problemləri həll etmək çox vacibdir və hökumətimiz bunu nəzərə almalıdır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli deputatlar və qonaqlar! 2017-ci ilin büdcəsinin icra vəziyyəti haqqında hesabatı müsbət qiymətləndirirəm. Ona görə ki, dünyada baş verən qlobal böhran və manatın

devalvasiyası fonunda Azərbaycan neft hasilatından asılı ölkələr arasında ən yaxşı göstəricilərə malikdir. Yəni Azərbaycan hökuməti əlindən gələni edir. Yenə də xoşdur, vergilər naziri bəyan edib ki, gələcəkdə vergi uçotu dərəcələrinin azaldılması barədə təkliflər hazırlanır. Bu da bir qədər yaxşıdır. Ancaq biz bilirik ki, vergi gəlirləri yerinə yetirilə bilməyib.

Bunun da səbəbi var. Ümumiyyətlə, büdcə sistemi zəncirində mən elə bir halqa axtardım ki, konkret o barədə danışım, amma hər şeyə aid olsun. Mənə elə gəlir ki, bu, məhz əmək intizamının yerinə yetirilməməsi nəticəsində vergilərin kifayət qədər toplanmaması, vergi intizamının pozulmasıdır.

Bu nədən ibarətdir? Bu məsələni əvvəllər də qaldırmışıq. Mənə elə gəlir ki, 2017-ci ildə büdcənin vergi hissəsinin yerinə yetirilməməsinin subyektiv səbəblərindən biri də əmək intizamına, istehsalat intizamına əməl edilməməsidir. Açıq danışaq. Biz dövlət müəssisələrində, beynəlxalq şirkətlərdə, özəl müəssisələrin hamısında, rayonlarımızda, şəhərlərimizdə, paytaxtımızda eyni kütləvi qaydanı müşahidə edirik. Bu nədən ibarətdir? İşçilər şənbə və bazar günləri işlədilir, 12 saat, 15 saat işlədilir. Bu yaxınlarda müşahidə etdim ki, hətta bizim Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyində belə fəhlələr işlədilirdi. Bunu neçə tikintinin yanından keçəndə öz gözümlə gördüm. Bu adamlar işlədilir və onlara əmək haqqı, təbii ki, qara siyahı ilə verilir. Rayonlardan on minlərlə fəhlə gəlir, pul qazana bilsinlər deyə iş vaxtından əlavə işləməyə məcbur olurlar. Nəticədə nə olur? Əmək haqqı yazılır, qara mühasibat əmələ gəlir, vergilər tam ödənilmir, vergi dövlətə gəlmir. Dövlət də varlanmır və dövlətə gələn vergilər sayəsində əmək haqlarını,

pensiyaları kifayət qədər artıra bilmirik. Mən istəyirəm ki, yeni hökumətimiz buna çox ciddi nəzarət etsin. Axı bu bizim problemimizdir, ciddi problemdir. Bunu yoluna qoymaq lazımdır. Nə vaxta kimi bu məsələlərə dözəcəyik?

Biz tarix kitablarından oxuyurduq ki, XVII–XVIII əsrlərdə vəhşi kapitalizm dövründə insanlar 8 saatlıq iş uğrunda mübarizə aparırdılar. Onları "tərtökmə sistemine", konveyer sistemine məcbur edirdilər. Amma bizim fəhlələrimiz bəzən 12–15 saat işləməyə razı olurlar, təki ailələrini dolandıra bilsinlər. Onlara kifayət qədər əmək haqqı versək, artıq vaxtda işləməyə də lüzum qalmaz. Vergi intizamı lazımdır. Maliyyə intizamı da pozulur. Vergi intizamı, ölkədaxili miqrasiya sistemi pozulur. Ona görə də hökumətdən çox xahiş edirəm, bu məsələlərə ciddi fikir versin.

Həmkarım Fərəc bəy məsələ qaldırdı. Nə qədər demək olar? Heç kim demir ki, kreditlərin ödənilməsi ilə bağlı problemlər var. Hamı bunu təsdiq edir. Bəs bu nə vaxt həll olunacaq? Hökumət 2017-ci ildə niyə buna əncam çəkmədi? Bunun həlli 2018-ci ildə də hələ görünmür. Axı bu problemdir, onu həll etmək lazımdır.

Bizdə varlı təbəqə ilə kasıb təbəqə arasında çox ciddi əmək haqqı, gəlir fərqi var. Bunları yumşaltmaq lazımdır. Bayaq deyildiyi kimi, orta sinfi təmin etmək lazımdır.

Mən inanıram ki, hökumətimiz bunlara diqqət edəcək. Dediyim kimi, bumeranq effektini hamımız başa düşəcəyik. Bir şeyi başa düşəcəyik, insanlar idealistcəsinə dinə, görmədiklərinə inanırlar, lakin real həyatda gördüklərinə inanmırlar. Yəni yarımaterialistdirlər. İnsanlar nəyə ümid edirlər, ondan yapışırlar. Biz onların ümidini artıraq, bir hökumət olaraq onları daha yaxşı həyat şəraiti ilə təmin edək. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qənirə Paşayeva.

**Q.Paşayeva.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, media nümayəndələri, hökumətimizin üzvləri! Mən də Cümhuriyyətimizin 100-cü ildönümü münasibəti ilə hər birinizi, hər bir azərbaycanlını təbrik edirəm. Təbii ki, bu sənədə səs verəcəm, çünki cənab Prezidentin rəhbərliyi altında ölkəmizdə çox böyük işlər, layihələr həyata keçirilir. Amma bir sıra məsələləri qaldırmaq istəyirəm. Mən ön cəbhə rayonlarından birini – Tovuz rayonunu təmsil edirəm. 2017-ci il ərzində Tovuz rayonunda artıq başa çatmalı olan bəzi layihələrin tamamlanmaması məsələsindən danışmaq istəyirəm. Tovuzun bir mərkəzi klubu var – Nizami klubu. Uzun illərdir təmir olunur və təmir başa çatmır. Bu səbəbdən aparılan təmirin də keyfiyyəti aşağı düşür. Çox təəssüf ki, bu layihə hələ də təhvil verilməyib. Hökumət üzvlərindən xahiş edirəm ki, vəsait ayrılsın və bu proses artıq başa çatsın. Çünki görülən işlər də öz keyfiyyətini zaman uzandıqca itirməyə başlayır.

İkinci bir layihə aşıq muzeyi ilə bağlıdır ki, burada tikinti hələ də gedir. Demək olar ki, təhvil verilməliydi, amma bu proses də sürətlə gedə bilmir. Bu da işin keyfiyyətinə mütləq öz təsirini göstərir. Bu 2 layihə 2017-ci ildə artıq bitməliydi, 2018-ci ildə isə onların açılışı olmalıydı. Xahiş edirəm, bu layihələrə diqqət yetirilsin ki, 2018-ci ildə bunlar, heç olmasa, başa çatsın, bitsin.

Mən burada bir neçə digər məsələni qaldırmaq istəyirəm. Ötən gün biz Qarabağ müharibəsində qazi olmuş, əlil insanlarımızla görüşürdük. Onların işlə bağlı ciddi problemləri var. Bizim xeyli önəmli qanunlarımız var, "Məşğulluq haqqında" Qanun qəbul olunub. Biz bu gün Əlilliyi olan şəxslərin hüquqları haqqında qanun layihəsini də üçüncü oxunuşda qəbul edəcəyik. Bütün qanunları-

mızda dövlət və özəl müəssisələrdə əlillər üçün kvotalar nəzərdə tutulub. Biz bu məsələni ötən il də qaldırdıq, amma çox təəssüf ki, onu yenə də hesabatlarda görmürük. Əlillər üçün ayrılan kvotalarla bağlı nə iş görülüb? Bu işləri görməyən qurumlara qarşı hansı tədbirləri görmək və ya hansı mexanizmlərə əl atmaq lazımdır ki, bu norma reallaşsın.

Özəlliklə, bütün əlillərimizin kvotalardan yararlanması çox önəmlidir. Qarabağ müharibəsi əlillərimiz isə, təbii ki, işlə təmin olunmalıdırlar. Bir çoxunun övladları var, onları dolandırmalıdırlar. Bu, asan deyil. Ona görə mən yeni nazirimizdən də, hökumət üzvlərindən də xahiş edirəm ki, "Məşğulluq haqqında" Qanunda əlillərlə bağlı məsələlərə ciddi diqqət yetirilsin.

Hörmətli təhsil nazirimizdən xahiş etmək istəyirik. Bizim müəllim peşəsini oxumuş gənclərimiz, əlillərimiz var. Onların işlə təminatında problemlər mövcuddur. Biz bu məsələni keçən il də qaldırmışdıq. Xahiş edirik, bu gənclərlə bir görüş keçirilsin. Onlar başqa yerdə işləyə bilməzlər, müəllim peşəsini oxuyubsa, müəllim işləməlidir. Onlar əlildirlər. O gənclərə necə kömək etmək olar? Biz bu məsələni keçən il də qaldırmışdıq. Qanunvericilikdə bu məsələlər var, onların həlli prosedurlarına diqqət yetirmək lazımdır.

Axırıncı məsələni burada həmkarlarım da bayaq qaldırdılar. Bir neçə gün öncə bir qrup insan yenə gəlmişdi. Sahibkarların hüquqları müdafiə olunur, biz hamımız da bunu dəstəkləyirik. Çünki ölkəmizin inkişafı sahibkarlığın inkişafından keçir. Amma insanlarımızın sahibkarlarımız tərəfindən çalışdırılmasında əmək müqavilələri məsələsinə, bununla bağlı qanunların həyata keçirilməsinə diqqət etməliyik. Bu qanunların həyata keçməməsi dövlət

büdcəsinə, eləcə də  o insanların gələcək pensiyasına nə qədər zərər vurur. Sabah bu insanlar  qanunsuz yerə işdən uzaqlaşdırılanda öz hüquqlarının qorunmasında da ciddi problemlər yaşayırlar. Ona görə xüsusilə bu bloka aid qurumlardan xahiş edirik ki, qanunların həyata keçirilməsinə...

**Sədrlik edən.** Sağ olun. Tahir Mirkişili.

**T.Mirkişili.** Çox sağ olun, cənab Sədr. Hörmətli həmkarlar, hörmətli hökumət üzvləri! Mən də düşünürəm ki, 2017-ci ilin büdcəsi həm icrasına görə, həm də planlaşdırıldığı zamana görə kifayət qədər uğurlu və eyni zamanda, kifayət qədər innovativ metodların tətbiq olunduğu bir büdcədir. Nəzərə almaq lazımdır ki, 2017-ci ilin büdcəsi 2016-cı ilin dekabrında qəbul olunmuşdu və o zaman Azərbaycan iqtisadiyyatı xarici amillərin təsiri altında müəyyən çağırışlarla üzləşmişdi. Buna görə də 2017-ci ilin büdcəsi fiskal cəhətdən yığcam bir büdcə idi. Amma büdcənin icrası, iqtisadiyyatda sonra baş verən inkişaf tempi onu göstərdi ki, büdcənin icrasında – həm gəlir, həm də xərc hissəsində yeni metodların tətbiq olunması onun icrasına tam təminat vermişdir.

Mən xüsusi qeyd etmək istəyirəm ki, görülən tədbirlər nəticəsində, – daha öncə də deyildi, – 2017-ci ildə Azərbaycan iqtisadiyyatı makroiqtisadi sabitliyə nail olmuş, ölkədən ixrac artmış, ölkənin tədiyyə balansının cari əməliyyatlar hesabında müsbət saldoya nail olunmuşdur. Bütövlükdə bu göstəricilərin 2017-ci ilin dövlət büdcəsi ilə uzlaşdırılması həm büdcənin, həm də eyni zamanda, iqtisadiyyatın bir yerdə, eyni tezliklə uzlaşdırılması, düşünürəm ki, hökumətin də, iqtisadiyyatın da çox mühüm uğurlarından biridir.

Cənab Sədr, bildiyiniz kimi, artıq 2018-ci ilin büdcəsi

icra olunur və 2018-ci ilin büdcəsi 2017-ci ilin büdcəsindən daha böyükdür. Bizim iqtisadi artımımızın həm bu il, həm də növbəti illərdə daha müsbət dinamika ilə planlaşdırılması deməyə əsas verir ki, Azərbaycanın büdcəsi, Azərbaycanın iqtisadiyyatı bundan sonra da böyüyəcək, büdcənin gəlir və xərc istiqamətlərində kifayət qədər böyük irəliləyişlər olacaqdır.

Büdcənin icrasına dair bizə təqdim olunmuş rəylərdə, Hesablama Palatasının, Maliyyə Nazirliyinin hesabatlarında kifayət qədər informasiya vardır. Təqdim olunmuş sənədlər belə nəticəyə gəlməyə əsas verir ki, büdcənin həm gəlir hissəsində, həm də icrasında yeni metodlara, yeni innovativ yanaşmalara və bu yanaşmaların artmasına getdikcə daha çox ehtiyac yaranır. Büdcənin gəlir hissəsində qeyd olunduğu kimi, Azərbaycanda məlumatların daha da mərkəzləşdirilməsi və şəffaflaşdırılması, hesabatlılığın təmin olunması üçün ölkədə vahid məlumatların bir qaydada, bir mərkəzdə nəzərə alınmasına geniş ehtiyac yaranmışdır. Bütün bu dediklərimi nəzərə alaraq, büdcənin həcminin getdikcə artması üçün inzibatçılıqla yanaşı, ölkə iqtisadiyyatında yeni innovativ addımlara da ehtiyac vardır. Eyni yanaşmanı büdcə xərclərində də görmək mümkündür. Hesablama Palatasının verdiyi rəylərdə, aparılan bütün yoxlamalarda büdcə xərcləri ilə bağlı müəyyən çağırışların və faktların ortaya çıxması onu deməyə əsas verir ki, büdcə xərclərində də daha çox nəzarətə, daha çox hesabatlılığın və şəffaflığın təmin olunmasına ehtiyac yaranmışdır. Bütün bu dediklərimi, büdcənin həcminin getdikcə artmasını nəzərə alaraq, inzibatçılıqla yanaşı, belə tədbirlərin, innovativ metodların artırılması zəruridir.

Eyni zamanda, Azərbaycanda elektron büdcə sisteminin

yaradılması ilə bağlı bir konsepsiyanın qəbul edilməsini, yaxud elektron büdcə sistemi elementlərinin tətbiq olunmasını, hökumətdə müəyyən müzakirələrin aparılmasını xahiş etmək istərdim. Çünki yalnız innovativ metodların tətbiqi, iqtisadiyyatın rəqəmsallaşdırılması və rəqəmli iqtisadiyyatın tətbiq olunması dediyimiz istiqamətdə səmərə verə bilər. Mən ümumilikdə büdcənin icrası layihəsini müsbət qəbul edirəm, ona səs verəcəyəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Fəzail İbrahimli.

**F.İbrahimli**. Təşəkkür edirəm, Oqtay müəllim. Mənim verilən vaxt ərzində büdcə ilə bağlı danışmaq fikrim yoxdur, amma hökumətin yeni üzvlərini təbrik edirəm. Burada bizim büdcə məsələləri ilə məşğul olan kifayət qədər iqtisadçılarımız, bu sahəni bilən insanlarımız var. Amma baxanda fikirləşdim ki, o sıra nə qədər yeniləşib, dəyişib, nə qədər adam gəlib, gedib. Güman edirəm ki, eyni vəzifələrə təyin olunmuş məmurlar özlərindən əvvəlkilərin taleyinə baxıb, gözü çıxmış qardaşlarından kifayət qədər ibrət dərsi götürüb, bu millətə, bu dövlətə çox sədaqətlə, vicdanla xidmət edəcəklər.

Əminəm ki, biz növbəti büdcə müzakirəsində çox böyük uğurlarımızdan danışacağıq. Çünki vaxtı ilə mənim dediyim, o mollanın ət bölgüsü olmayacaq: əvvəl kəsin verin başı mollanın, başdan aşağı döşü mollanın, yerdə qalır leşi, onunla da var işi mollanın. Əminəm ki, kifayət qədər kadrlarımız yerindədir və mən öz ürək sözümü növbəti müzakirədə deyəcəyəm.

Azərbaycanın ən böyük var-dövləti ölkədəki siyasi sabitlikdir. Biz bunu qorumalıyıq. Burada təkcə hökumətin deyil, hər bir vətəndaşın, o cümlədən millət vəkillərinin üzərinə böyük yük düşür. Hökumət, təbii ki, Prezident

bunun qarantıdır. Sabitliyi bu hökumət yaradır. Ancaq yaratdığımız bu sabitliyə kifayət qədər iti caynaqlar uzanır, keçən dəfə dedim, müsəlman dünyası qan içində boğulur.

Sabit bir Azərbaycan var. Hörmətli hökumət üzvləri, hörmətli həmkarlarım, ona görə biz hər addımımızda nəyimiz varsa, ortaya qoyub sabitliyi qorumalıyıq. Orada boşluq yaratmamalıyıq ki, kimsə əlini o boşluğa uzatsın. Amma bəzən görürsən ki, cüzi sayılan məqamlar bizdən asılı olmayaraq böyük boşluqlara gətirib çıxarır.

Məsələn, seçildiyim dairədə düz 10 ildir bir problem var. Kəmalüddövlənin Cəlalüddövləyə məktublarının sayından çox məktublar yazmışam. Baş nazirə yazıram ki, Göytəpə şəhəri tam qazla təmin olunub, ancaq şəhərin ortasında hansısa məmurun səhvi ucbatından iki küçənin qazı yoxdur. Başqa bir ünvana – Rövnəq Abdullayevə yazıram. Rövnəq Abdullayevdən mənə cavab gəlir: oranı qazla təmin etmək üçün maliyyə nəzərdə tutulmayıb. Mən başa düşürəm, qanun belədir. Ora maliyyə vəsaiti ayrılmalıdır. Axı mən seçicimin verdiyi o suala cavab verə bilmirəm. Deyir, dünyanı biz qazla təmin edirik, bu hökumətin gücü çatmır ki, Göytəpə şəhərinin iki küçəsini qazla təmin etsin. Bax, mən o boşluqları doldurmaq üçün çox xahiş edirəm. Maliyyə nazirinin özü getdi, müavini buradadır. Xahiş edirəm, bunu qeydiyyata alsın. Bunun üçün hökumətdən nə qədər pul tələb olunur ki? Şəhərin mərkəzində 400 nəfər 20 ildir qazsız qalıb, sağında və solunda qaz yandırılır, ortada iki küçədə insanlar atla, eşşəklə odun daşıyıb, yaşayır. Bu necə olur? Boşluq budur. Xahiş edirəm, məsələ müzakirə olunanda qeydə alınsın, Göytəpə şəhərində o iki küçənin qazla təmin edilməsinə rəvac verilsin. Mən də oraya üzüağ gedib çıxa

bilim. On ildir utandığımdan onlarla görüş keçirə bilmirəm.

İkincisi, yox yerdən Göytəpə şəhərində cənab Prezident bir bağ açdı, hələ Göytəpə şəhəri yaranandan belə bağ mövcud deyildi. Amma çox maraqlıdır ki, şəhərə xidmət edən bir xəstəxana yoxdur, müharibə dövründə hospital olan bir xəstəxana orada fəaliyyət göstərir. Bu xarakterli məsələləri həll etsək, o boşluqlar dolar, sabitlik qorunar, xalqın dövlətə münasibəti güclənər. Biz də millət vəkili kimi seçicilərin qarşısına üzüağ çıxa bilərik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Təkid eləyən var. Qüdrət Həsənquliyev həmişəki kimi təkid edir. Buyurun.

**Q.Həsənquliyev**. Cənab Sədr, mənim hüquqlarımı müdafiə etdiyiniz üçün təşəkkür edirəm. Hörmətli həmkarlar, əlbəttə, çox müsbət haldır ki, həm Vergilər Nazirliyi, həm də Dövlət Gömrük Komitəsi öz vəzifələrini layiqincə icra edib və büdcənin gəlirlər hissəsi bu iki struktur tərəfindən tam yerinə yetirilib, o cümlədən Dövlət Neft Fondu lazım olan vəsaiti ayırıb və icmal büdcənin gəlirləri 104,8 faiz yerinə yetirilib.

Mən vaxtın azlığını nəzərə alıb yalnız bir məsələnin üzərində dayanacağam. Bu da onunla əlaqəlidir ki, gəlirlər hissəsi tam yerinə yetirilsə də, bəzi sahələr üzrə maliyyələşdirmədə problemlər var. Məni ən çox narahat edən məsələ elm xərcləri ilə bağlıdır. Bizdə büdcənin cəmi 0,6 faizi elm xərclərinə ayrılır, təqribən 118 milyon manat vəsaitdir və bu qədər az vəsaitdən də 8 milyon 220 min manat istifadə olunmayıb. Buna bir aydınlıq gətirilsə idi, çox yaxşı olardı. Halbuki inkişaf etmiş ölkələrdə büdcə xərclərinin təqribən 4 faizə qədəri elm xərclərinə ayrılır. O cümlədən büdcə xərclərinin cəmi 10,6 faizi təhsilə ayrılır.

Halbuki qonşumuz İranda büdcənin 19,3 faizi, Moldovada 18,5 faizi təhsilə ayrılır. Bu siyahını davam etdirmək də olar. Bu yaxınlarda bizim qardaş Türkiyə Respublikasında Rəcəb Təyyib Ərdoğan 20 yeni universitetin yaradılması haqqında qanun layihəsini imzaladı. Çünki hər kəs başa düşür ki, elmə və təhsilə kifayət qədər vəsait ayırmadan və diqqət göstərmədən o ölkənin sürətli inkişafını təmin etmək xeyli dərəcədə çətin olacaq.

Biz burada hər zaman məktəbəqədər təhsildə olan problemlər barədə çıxış edirik. Hətta keçən dəfə də bizim həmkarlarımız qeyd elədilər ki, birinci sinifə gedən şagirdlərin təqribən 20–25 faizə qədəri məktəbəqədər müəssisələrdə təhsil ala bilirlər. Amma məktəbəqədər təhsilə 170 milyon manat ayrılıb, 17 milyon kəsir var. Yaxud ümumi təhsilə 3 milyon manat ayrılıb, yenə də 75 min kəsir var.

Hazırda dünyanın bir çox ölkələri, o cümlədən Böyük Britaniya hər il xarici tələbələrdən 20 milyard funt sterlinqdən çox gəlir götürür və həmin xarici tələbələr hesabına ölkədə 200 mindən artıq iş yeri açılıb. Azərbaycanda isə bu məsələnin həlli üçün bizim kifayət qədər potensialımız var ki, İrandan, Türkiyədən, o cümlədən Orta Asiya respublikalarından ölkəmizə çoxlu sayda tələbələri dəvət edib, burada onlara təhsil verə bilək. Tələbələr həm də ölkələrarası münasibətlərin yaxşılaşmasına xidmət edirlər. Amma bizim universitetlərimizin ciddi yataqxana problemi var. Məsələn, neçə illərdir, Bakı Dövlət Universitetinin yataqxanalarının bir hissəsi sökülüb, o vəziyyətdə də qalıb. Digər universitetlərin də eyni problemləri var. Xarici tələbələr də birinci bu məsələyə diqqət yetirirlər. Ümumiyyətlə, müasir dövrdə özünün kampusları olmayan universitetlər müəyyən mənada ciddi qəbul edilmir. Ona görə də yəqin ki, artıq yeni büdcənin hazırlanması ilə bağlı işlər gedəcək.

Bizim burada hörmətli nazirlərimiz də oturublar. Hesab edirəm ki, hökumətin elmə və təhsilə diqqəti xeyli dərəcədə artırılmalı, bu sahəyə daha çox vəsait yönəldilməlidir. O cümlədən hökumət çalışmalıdır ki, özəl sahibkarlar təhsil prosesinə qatılsınlar və məktəbəqədər müəssisələrin, xüsusilə də uşaq bağçalarının, yeni universitetlərin yaradılmasında sahibkarlar yaxından iştirak eləsinlər. Ümumən isə mən büdcənin icrası ilə bağlı qanun layihəsinə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Müzakirələri bitirdik, icazə verək, hökumət üzvləri, – maliyyə naziri üzürlü səbəbdən getdi, – Azər Bayramov buyursun, sualları cavablandırsın.

**A.Bayramov,** *Azərbaycan Respublikası maliyyə nazirinin müavini.*

Təşəkkür edirəm, Oqtay müəllim. Hörmətli millət vəkilləri, büdcənin icrasına verdiyiniz qiymətə görə təşəkkürümü bildirirəm. Qaldırılan məsələlərlə əlaqədar qısa məlumat vermək istərdim. Qeyd etdiyiniz kimi, 2017-ci ilin büdcəsinin icrasını müsbət tendensiyalarla qiymətləndirmək olar. Bu, ilk növbədə, neft gəlirlərindən asılılığın azalması, eyni zamanda, büdcə xərclərinin il ərzində ahəngdarlığının artmasıdır. Burada millət vəkilləri bizim qeyri-neft gəlirlərimizin, cari xərclərin təmin olunması istiqamətində gedən proseslərə diqqət yetirdilər. Rəqəmlərə fikir versəniz, görərsiniz ki, bu məbləğ bizim cari xərcləri tam örtməsə də, illər üzrə dinamika müsbətdir. Əvvəlki ilə nisbətən bu nisbət təqribən 10 faiz artmışdır. Bu, 2016-cı ildə 70 faiz səviyyəsində idisə, artıq 2017-ci ildə 80 faizə yaxınlaşır. Burada bütövlükdə dövlət gəlirlərinin formalaşması prosesi ilə əlaqədar məsələlərə toxunuldu. Gəlirlərimiz tam icra olunsa da, bəzi vergi növləri üzrə geriləmə var. Əksər millət vəkillərinin çıxışla-

rında gəlir vergisi ilə əlaqədar problemlər qeyd olundu. Bu problemləri izləyirik, təhlil edirik. Vergilər Nazirliyinin yeni rəhbərliyi ilə birlikdə qanunvericilikdə bu istiqamətdə bəzi dəyişikliklər edilməsi üçün müxtəlif təkliflər hazırlanır və yaxın zamanlarda sizlərə təqdim olunacaqdır.

Bir sıra millət vəkilləri investisiya tipli əlavə xərclərə ehtiyac olduğunu qeyd etdilər. Bu, təbii ki, 2017-ci ilin büdcəsinin icrası ilə əlaqədar məsələ deyil, yəni növbəti dövrlər üçün investisiya xərcləri ayrılan zaman çalışarıq, bu təklifləri də İqtisadiyyat Nazirliyi ilə birlikdə araşdıraq və mümkün olan xərcləri əlavə edək.

Bəzi millət vəkilləri müəyyən sahələrə, xüsusilə elmə, təhsilə ayrılmış vəsaitlərin tam həcmdə icra olunmaması ilə bağlı öz narahatlıqlarını bildirdilər. Burada da qeyd etmək lazımdır ki, hər hansı xərcin 100 faiz icra olunması, xüsusilə cari xərclər sahəsində praktik baxımdan mümkün olmayan bir məsələdir. Hər zaman müəyyən vakansiyalar olur, bəzi prosesləri il ərzində başa çatdırmaq olmur.

Ona görə hesab edirəm ki, cari xərclərdə 93–95 faiz arasında icranı qəbul etmək olar və bu, illər üzrə tendensiyadır, orta göstəricilərin bu səviyyədə olması özünü göstərir.

Biz bu gün səslənən irad və təklifləri qeyd eləmişik və çalışacağıq, həm növbəti büdcənin planlaşdırılması prosesində, həm də onun icrası zamanı bunları nəzərə alaq. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Buyurun, Mikayıl Cabbarov, suallara cavab versin.

**M.Cabbarov,** *Azərbaycan Respublikasının vergilər naziri.*

Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, hökumət üzvləri! Bütün səslənən təkliflər

fəaliyyətimizdə nəzərə alınacaqdır. Səslənən bir sıra haqlı suallara cavab olaraq aşağıdakı məlumatı hörmətli millət vəkillərinin diqqətinə çatdırmağı zəruri və vacib hesab edirəm. Bilirsiniz ki, 2017-ci ilin dövlət büdcəsinin ümumi gəlirlərinin artıqlaması ilə icra olunmasına baxmayaraq, Vergilər Nazirliyinin xətti ilə 675 milyon manat məbləğində kəsir müşahidə edilirdi. Keçən ilin planı ilə müqayisədə 2018-ci ilin büdcə planının proqnozunun təxminən 3 faiz daha artıq olmasını nəzərə alaraq fəaliyyətimizin əsas istiqamətini və əsas problemin qoyuluşunu qarşımızda duran öhdəliklərin qanunvericilik çərçivəsində yerinə yetirilməsinin təmin edilməsində görürük. Əsas problemin qoyuluşu odur ki, mövcud vergi yükü ilə vergi mədəniyyəti arasında olan fərq hələ də qənaətbəxş hesab edilə bilməz. Vergi mədəniyyəti söylədikdə biz həm vergi inzibatçılığına, həm də ki, vergilərin, burada bəzi həmkarlarımızın qeydlərində səsləndiyi kimi, könüllü ödənilməsinə və bəyan edilməsinə aid məsələləri nəzərdə tuturuq.

Dövlət başçısı tərəfindən qarşımıza qoyulan əsas tapşırıq vergi ödəyicilərinin, xüsusilə də kiçik və orta sahibkarların vergi yükünün azaldılması, vergi inzibatçılığında şəffaflığın və bərabərliyin təmin edilməsindən ibarətdir. Məhz bu əsas istiqamətləri rəhbər tutaraq, biz növbəti ilin büdcə paketi çərçivəsində aidiyyəti qurumlarla birgə çalışaraq, kölgə iqtisadiyyatının azaldılmasına yönəlmiş tədbirləri, hesabatlılığın artmasını təmin edən tədbirləri və bir sıra digər islahatları, o cümlədən burada səslənən mövzu ilə bağlı əmək haqlarının, fiziki şəxslərin gəlir vergisinin rejimi ilə bağlı təklifləri hazırlayıb təklif etmişik. Fürsətdən istifadə edərək Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi və digər həmkar orqanlara faydalı əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm.

Qeyd etdiyim məqsədlərə nail olmaq üçün qarşımızda duran əsas çağırışlara toxunmalı olsam, bunlar artıq qeyd etdiyim kimi, dövriyyələrin, xüsusən ticarət dövriyyələrinin azalması problemi, 2018-ci ilin əvvəlinə böyük həcmdə artıq ödəmələrin mövcudluğudur. Bu mövzuya, bilirsiniz ki, Hesablama Palatasının keçənilki müvafiq hesabatında da toxunulmuşdu.

İllərcə oturuşmuş iş sisteminin və iş vərdişlərinin təkmilləşdirilməsi kimi çağırışları da qeyd etməliyəm. Bir daha vurğulamaq istəyirəm ki, burada səslənən hər bir təklif nəzərə alınacaqdır. Diqqətinizə görə təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi. Hökumət üzvlərinə də təşəkkür edirəm.

Hörmətli millət vəkilləri, bildiyiniz kimi, bu, yaz sessiyasının sonuncu iclasıdır, burada düzəlişlər edilməsi məsələləridir, imkan var ki, tənəffüssüz işləyək. Etiraz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda xahiş edirəm, çıxışlarda da bir az konkret olaq. Gündəliyin üçüncü məsələsi. Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş). Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Cənab Sədr, vaxtın darlığını nəzərə alaraq, mən də yerimdən çox qısa məlumat vermək istəyirəm. Bildiyiniz kimi, mayın 4-də Milli Məclisin plenar iclasında Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikası qanununun layihəsi müzakirələrdən sonra ikinci oxunuşda qəbul edildi. Millət vəkilləri Tahir Kərimli, Əli Məsimli, Tahir Rzayev, Musa Quliyev, Araz Əlizadə və Məlahət İbrahimqızı çıxış edərək, layihəyə müsbət rəy bildirmiş, bir sıra təkliflər irəli sürmüşlər. Həmkarlarımın səsləndirdikləri fikirlər və təkliflər komitənin mayın 20-də keçirilmiş iclasında geniş müzakirə olundu. Beləliklə, müzakirələr zamanı Tahir Kərimlinin və Qənirə xanımın təklifinə əsasən layihənin 1.0.13-cü maddəsində “audio” sözündən sonra “və video” sözləri əlavə edilmişdir. Təklif qanunvericilik təşəbbüsü subyekti ilə məsləhətləşib razılaşdırıldıqdan sonra layihənin bir maddəsində müvafiq düzəliş aparılmışdır. Düzəlişi tam mətndə olduğu kimi diqqətinizə çatdırıram: 1.0.13. Ünsiyyət – dillərdən, mətndən, Brayl əlifbasından, toxunmaqla duyulan ünsiyyətdən, böyük şriftdən, mümkün multimedia vasitələrindən, eləcə də çap materiallarından, audio və video vasitələrdən, adi dildən, qiraətçilərdən, habelə mümkün informasiya-kommunikasiya texnologiyaları da daxil olmaqla ünsiyyətin gücləndirici və alternativ üsullarından istifadə. Düzəliş bircə “video” sözüdür.

Hörmətli millət vəkillərinin, eyni zamanda, müzakirələrdə vaxtaşırı iştirak edən qeyri-hökumət təşkilatlarının və ictimaiyyət nümayəndələrinin verdiyi bir sıra təkliflər qanunun predmeti olmadığı üçün müvafiq yuxarı icra orqanına və sahə nazirliklərinə göndərilmişdir. Qanunun qəbulundan sonra onun tətbiqi ilə bağlı qəbul ediləcək direktiv sənədlərdə, əmr və sərəncamlarda o təkliflər öz əksini tapa biləcəkdir. Layihəyə, habelə bir neçə texniki dəyişiklik edilmişdir.

Əziz deputat həmkarlarım, sizi bu qanun layihəsinə üçüncü oxunuşda səs verməyə çağırıram. Hesab edirəm ki, bununla biz ölkəmizdə əlilliyi olan şəxslərin hüquqlarının daha güclü qorunmasına yaxından kömək etmiş olacağıq. Diqqətinizə görə minnətdaram.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini **Z.Əsgərov** sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim. Hadi müəllim qeyd etdi, bu, üçüncü oxunuşdur. Burada, əsasən, redaktə xarakterli müəyyən dəyişikliklər etmək olar. Yəni qanunvericiliyin tələbi budur. Amma bununla yanaşı, bir neçə fikirimi də bildirmək istəyirəm. Birincisi, illərdir ki, əlilliklə bağlı addımlar atılıb, əlilliyin verilməsi, onun obyektiv və subyektiv cəhətləri parlamentdə müzakirə olunub və hesab edirəm ki, indi buna yeni baxışla, yeni nöqteyi-nəzərlə yanaşmalıyıq. Əlilliyin istər verilməsi, istərsə də alınması ədalət prinsipinə söykənməlidir. Elə insan var ki, ona əlillik verilməlidir, eləsi də var ki, buna haqqı çatmır. Biz bu məsələni

qanunvericiliklə elə möhkəmləndirməliyik ki, burada narazılıq olmasın, nə kim isə dövlət büdcəsindən məsrəflər əldə etməsin, nə də dövlət büdcəsindən öz haqqını almayıb narazı qalmasın. Mən hesab edirəm ki, bu, çox ciddi bir məsələdir.

Azərbaycanda əhalinin sayında əlillərin sayı dünya ölkələrinə nisbətən çox-çox yuxarıdır. Çünki ayrı-ayrı strukturlar tərəfindən müəyyən əlillik dərəcələri verilibdir. Düzdür, Azərbaycan bir neçə müharibənin iştirakçısı olub, burada əlilliyin artmasına səbəb olan amillər var. Bununla yanaşı, atəşkəs dövründə əlillərin sayı müharibə dövründəkindən heç də az olmayıb. Hələ bir az da artıb. Əgər bu say dəqiq müəyyənləşsə, əlillik dərəcəsi düzgün verilsə, onların müavinətlərinin artırılması və digər problemlərinin həlli məsələsi də öz əksini lazımi yerində tapar.

İkinci ciddi məsələ ondan ibarətdir ki, – hörmətli Qənirə xanım da bu məsələni qaldırdı, – müəyyən əlillər var, işləyə bilərlər və onları işə cəlb etmək lazımdır. Təbii ki, tikintidə, ayrı-ayrı sahələrdə onların işləməsi çətindir, amma elə sahələr var ki, orada işlər oturaq vəziyyətdə icra olunur. Bunlardan istifadə edib əlilləri sosial həyatdan təcrid etmək deyil, əksinə, cəmiyyətin fəal bir üzvü kimi istər ictimai-siyasi həyata, istər istehsalat sahəsinə, istərsə də digər sahələrə cəlb etmək lazımdır.

Hörmətli Ziyafət müəllim, üçüncü blok məsələ – bizdə qanunda da var ki, əgər hər hansı müəssisə, təşkilat bağlanırsa, yaxud ixtisarlar edilirsə, siyahıda ən axırıncı əlillər, Qarabağ müharibəsi, Əfqanıstan müharibəsi veteranları, Çernobıl əlilləri olmalıdır. Lakin əfsuslar olsun ki, nə özəl şirkətlər, nə də bəzi hallarda dövlət strukturları buna əhəmiyyət vermirlər, ilk növbədə onları uzaqlaşdırırlar. Axı o adamların başqa iş axtarması digərlərindən

daha çətindir. Dövlət də bunu nəzərə alıb və bu məsələ qanunvericilikdə öz əksini tapıbdır. Lakin əfsuslar olsun ki, bəzi strukturlar buna nəzarət etmirlər. Deputat həmkarlarıma da kifayət qədər belə şikayətlər gəlir. İctimai birliklərlə məşğul olduğumuza görə bu şikayətlər bizə daha çox daxil olur və hesab edirəm, aidiyyatı strukturlar buna ciddi şəkildə nəzarət etməlidirlər. İstər əmək inspeksiyası, istərsə də digər bu səpkidən, bu qəbildən olan təşkilatlar diqqət etməlidirlər ki, bu cür insanların hüquqları həmişə müdafiə olunsun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hadi müəllim, buyurun.

**H.Rəcəbli**. Siyavuş müəllimin söylədiyi fikirlər bizim komitə iclasında vaxtaşırı müzakirə olunur və vaxtaşırı bu məsələ çözülür. Birinci, onu demək istəyirəm ki, bütün deputat həmkarlarımız bilsinlər, Azərbaycanda əhalinin tərkibində əlillərin faizi dünyanın bütün ölkələrindən aşağıdır. Yəni bizdə təxminən 6 faizdir, dünyada isə 10–12 faiz civarındadır.

Digər məsələ. Həqiqətən də, əlilliyin müəyyənləşməsində problemlər var. Biz yeni rəhbərliklə bunu çözmüşük, söhbət etmişik və düşünürük ki, yeni direktiv sənədlərdə bu düzəliş olmalıdır. Orada nə idi, Ziyafət müəllim? Əsas söhbət ondan gedirdi ki, kontakt azalsın, "həkim-əmək ekspert komissiyası" deyilən qurumlarla əməkdaşlıq olmasın. Bu məsələ gəldi səhiyyə orqanlarına bağlandı. Orada yenə də neqativ hallar oldu. Ona görə də müəyyənləşmədə yeni baxış olacaq.

Digər bir məsələ. Biz daim bu fikirdəyik ki, sosial müdafiənin baş prinsipi məşğulluqdur. Yəni ikinci, üçüncü qrup əlillərin məşğulluğunu hökmən təmin etməliyik. Siyavuş müəllim düz dedi ki, bəzi hallarda yerli orqanlarda bu qayda pozulur. Bununla əlaqədar müvafiq

orqanlar, strukturlar və sair var. Dediyim odur ki, Ziyafət müəllim, biz monitorinq keçiririk, bütün qanunlara yenidən baxırıq, yeni nazir ilə də söhbət etmişik. Sentyabr, oktyabr aylarında parlamentdə belə bir dinləmə keçirmək istəyirik ki, qanunlara əlavələr, dəyişikliklər edək. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun, Hadi müəllim. Məlahət xanım, sual verirsiniz? Xahiş edirəm, qanun layihəsi üzrə.

**M.İbrahimqızı.** Ziyafət müəllim, şərait yaratdığınıza görə çox sağ olun. Mən Hadi müəllimə təşəkkür edirəm. O, hətta bizim qaldırdığımız məsələləri də səsləndirdi. Hadi müəllim, amma Sizdən bir xahişim var. Şəxsən öz ünvanıma deyirəm, mənim qaldırdığım məsələ ilə bağlı siz aydınlıq vermədiniz. Mən keçən dəfə dedim ki, gözdən əlillər üçün respublika internat məktəbi var. Söhbət birinci qrup əlillərdən gedir. Sözsüz ki, ödənişli təhsil müəssisələrinə qəbul olunduqdan sonra onların ciddi problemləri yaranır. Məsələn, gözdən birinci qrup əlilin yanında həmişə bir valideyni olmalıdır ki, ona xidmət etsin. Biz ölkədə yoxsulluğun azalmasından fəxrlə danışırıq, bu, ailələrin maddi vəziyyətinə çox ciddi təsir edir. Çünki valideyn məcbur olur, övladına görə işləməsin, onu universitetə, məktəbə aparıb-gətirsin. Əlavə olaraq da birinci qrup əlil uşaqlar ali məktəbdə ödənişli təhsil alırsa, bu da ailənin üzərində əlavə maddi yük olur. Respublika üzrə bu say həddsiz dərəcədə azdır. Hadi müəllim, Siz bu məsələ ilə maraqlandınızmı? Yəni bunun yaxın perspektivdə həll olunması gözlənilirmi? Həmin internatlardan çox böyük müraciətlər var. Sizdən çox xahiş edirəm, buna həssaslıqla yanaşasınız. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc.

**Z.Oruc.** Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim.

Üçüncü oxunuşdur və əlbəttə ki, layihəyə dəyişiklik etmək artıq mümkün deyil. Əlillik dərəcəsinin verilməsi mövzusundan çox danışılır. Ötən illər ərzində bununla bağlı baş vermiş nöqsanlar faiz göstəricisinin artmasına səbəb olub və sanki belə bir mənzərə yaranır ki, bizim millətin içərisində bu cür insanlar çoxdur. Hörmətli Hadi müəllim də bu barədə rəqəmləri nəzərinizə çatdırdı. Biz nə qədər mükəmməl qanun qəbul etsək də, nə qədər ideal insanlar həmin mərkəzləri idarə etsələr də, bu prosesin kökü, özəyi həll olunmadan əlillərin sayının artmasının qabağını ala bilməyəcəyik.

Gəlin, görək, bu proses, ümumiyyətlə, nədən qaynaqlanır? Birincisi, adamlar niyə öz tərcümeyi-hallarını korlayıb saxta yol ilə əlil olmaq istəyirlər? Çünki bununla özlərinə daimi kiçik bir gəlir yeri düşünürlər. İş yeri alternativi olsa, o heç vaxt sənədlərini bu cür məhv etməz. İkincisi, obrazlı ifadə edirəm, əlil "istehsal edən" mərkəzlər var. Haradadır daha çox əlil "istehsal edən" mərkəzlər? Müharibə amilini bir qırağa qoyduq, bu, vətən qarşısında bir borcdur. Amma yol-nəqliyyat sistemi ilə bağlı və təbii doğulan əlillər, yəni körpələrimizin mühüm bir hissəsi o cür doğulurlar. Mən bu illər ərzində hələ bircə dəfə də görməmişəm ki, böyük müşavirələr keçirilsin və deyilsin ki, baxın, anaların dünyaya gətirdiyi uşaqların əlil olmasının bu qədər fundamental səbəbləri var. Dediyimiz kimi, birinci, yol qəzalarından, ikinci, tikintidən, üçüncü, təbii doğumlardan əlillər törəyir. Biz bununla bağlı addımlar atmalıyıq.

Hörmətli Ziyafət müəllim, mən ötən dəfə burada o fikrə toxundum. Yarışda qalib gələn tələbələrimizin boy-buxununa, digər parametrlərinə diqqət etdik. Bir çoxları bunu fərqli qarşıladılar. Amma mənim övladım heç bir

təhsil haqqı olmayan Bakı Atatürk Liseyində təhsil almağa başlamışdı. Mən görürdüm ki, orada birinci sinif şagirdlərinə süd verirlər. Düşünürdüm ki, bu hansı isə məqsədə görə edilir, yaxud bu uşaqlar erkən yaşlarında məktəbə gəliblər, ona görə də onların qəlbini oxşamaq üçündür və sair. Amma sonra bəlli oldu ki, bunun başqa üstünlükləri var, məsələn, sümüklərin möhkəmlənməsi. Avropa ölkələrində uşaqlara 1–2 yaşından, məktəbə qədər dövrlərdən süd verilir, müxtəlif qida maddələri əlavə olunur. Ona görə də əlilliyin qarşısını almaq istəyiriksə, bu cür fundamental sahələrdə addımlar atmalıyıq. Belə olarsa, o proses dayanar, o motiv, o səbəb aradan qalxmış olar.

Ziyafət müəllim, təşəkkür edirəm. Əminəm ki, Siz bunu müsbət qarşılayacaqsınız, yəni bilavasitə layihə ilə bağlı deyildi, amma bu məsələ ilə əlaqədardır. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qənirə Paşayeva.

**Q.Paşayeva.** Mənim, sadəcə, bir sualım var idi. Bu sualı, əslində, mövzunun müzakirəsi zamanı qaldırmışdıq. Amma bunu təkrar soruşuram, əgər bu məsələ qanunvericilikdə öz əksini tapmasa, biz bunu fərqli bir yerdə hansısa qaydada tətbiq edəcəyikmi? Hadi müəllim, söhbət 15-ci maddədən gedir ki, bunu keçən dəfə də vurğuladıq. 15.3-cü maddədə deyirik: "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxslər istisna olmaqla, əlilliyi olan şəxslərin yaşadıqları fərdi evlərin onlar üçün uyğunlaşdırılması onların vəsaiti hesabına təmin edilir". Bizim torpaqlarımız uğrunda sağlamlığını itirən, əlillik qazanan insanlarımız var. Yəni onlarla bağlı bu məsələ necə olacaq? Çünki bu çox vacibdir. Bu insanlar öz sağlamlıqlarını bizim üçün, vətənimiz üçün, insanlarımız, millətimiz üçün itirir. Bu maddə həmin

əlillərə də aiddirmi? Çünki bu, cəmiyyətdə heç də birmənalı olaraq xoş qarşılanan bir yanaşma olmayacaq. Bu, beynəlxalq standartlara uyğunlaşdırılan bir qanundur, digər qanunlarda, digər prosedurlar çərçivəsində bu məsələyə baxılır, ya baxılacaq? Siz müvafiq qurumlarla danışmısınız? Bilirsiniz ki, bu sahə ilə bağlı qurumlar bu sualın cavabını, açıqcası, gözləyirlər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əgər başqa çıxış etmək istəyən yoxdursa, hörmətli həmkarlar, bu qanun layihəsini səsə qoymazdan əvvəl mən bir fikir söyləmək istəyirəm. Əlilliyin alınması, birinci, ikinci, üçüncü dərəcəli əlillərlə bağlı məsələ, bilirsiniz ki, illərdir həm sizi narahat edir, həm də cəmiyyətdə müəyyən söz-söhbətlər yaranır və baxırsan ki, yenə də müəyyən narazılıq var və hörmətli deputatlarımız bu məsələni vaxtaşırı qaldırırlar.

Hər halda, mütəxəssislər oturub fikirləşsələr, yaxşıdır. Bu məsələni də ASAN xidmətə verək, bu məsələ də birdəfəlik qurtarsın. Nə qədər söz-söhbət olar? Qoy fikirləşsinlər, baxsınlar, əgər ASAN xidmətin texniki imkanları buna uyğundursa, bu məsələni də öz üzərinə götürsünlər. Nazirliyin də canı qurtarsın, bizim əlil vətəndaşlarımızın, həmkarlarımızın da bu süründürməçilikdən canı qurtarsın və bu söhbət parlamentdə bir daha müzakirə obyekti olmasın. Hər halda, təklifdir. İndi mən bilmirəm, bunu necə qarşılayacaqlar. Yenə də deyirəm, bu, ASAN xidmətin texniki imkanlarından asılı olacaq. Əgər ASAN xidmət bu işi görə bilərsə, mənə elə gəlir, həmin məsələnin üzərində işləmək olar. Bu həm cəmiyyətimizə, dövlətimizə xeyir gətirər, həm də bütövlükdə vətəndaşlarımız bununla irəli düşərlər. Təşəkkür edirəm, indi isə xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti iki məsələ cənab Prezidentin bir məktubu ilə daxil olub. “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə və Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişikliklər edilməsi barədə. Hər iki qanun layihəsini Eldar müəllim məruzə etsin, səsverməni ayrı keçirərik. Buyurun, Eldar müəllim.

**E.İbrahimov,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli Ziyafət müəllim. Hər iki qanun, dediyiniz kimi, bir paketlə daxil olub və təbii ki, qanun layihələri eyni məsələyə aid olduğu üçün onları icazənizlə birgə təqdim edərdik. “Torpaq icarəsi haqında” Qanunda dəyişikliklər edilməsi barədə layihədə həmin Qanunun “Torpaqların icarəyə verilməsinin ümumi qaydaları” adlanan 10-cu maddəsinin ikinci hissəsinə “dövlət” sözündən sonra “mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqlar istisna olmaqla, digər dövlət” sözlərinin əlavə edilməsi təklif olunur.

Bu dəyişikliklə əlaqədar həmin Qanuna “Dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsinin xüsusiyyətləri” adlanan 10-1-ci maddənin əlavə edilməsi təklif olunur. Sizə paylanmış arayışda

maddənin məzmunu verilmişdir. Bu əlavəyə, əsasən, dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahəsini icarəyə götürmək istəyən şəxs müvafiq icra hakimiyyəti orqanına, yəni yerli icra hakimiyyəti orqanlarına ərizə ilə müraciət edir, ərizəyə tələb olunan sənədlərin siyahısı əlavə olunur, müraciətə baxılma qaydası müəyyən edilir. Torpağın sahəsinin ayrılması məsələsi məqsədəuyğun hesab edildikdə, sənədlərin razılıq alınması üçün müvafiq icra hakimiyyəti orqanlarına göndərilməsi, bu orqanın razılıq verməsi, yaxud razılıq verdikdə icarə müqaviləsinin bağlanması ilə bağlı məsələlər tənzimlənir. Ərizəyə dair tələblər "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir. Bununla da dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqları icarəyə götürmək istəyən şəxs bir quruma müraciət edir, digər qurumla razılaşdırma isə şəxsin iştirakı olmadan qısa müddətdə həyata keçirilir, həmin qurumun razılığı olduqda icarə müqaviləsi bağlanır.

Torpaq Məcəlləsinə dəyişiklik edilməsi haqqında qanun layihəsində Məcəllənin "Kənd təsərrüfatı məhsulları istehsalı və emalı üçün torpaq sahələri" adlanan 14-cü maddəsinə "Dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin icarəyə verilməsi "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir" məzmununda üçüncü hissənin əlavə edilməsi təklif olunur. Bu dəyişiklik isə "Torpaq icarəsi haqqında" Qanunda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsinə uyğun hazırlanmışdır.

Beləliklə, hər iki qanun layihəsi dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqlardan daha səmərəli istifadənin təmin edilməsi, həmin torpaqların icarəyə verilməsi xüsusiyyətlərinin dövlət mülkiyyətində olan

digər təyinatlı torpaqların icarəsindən fərqli qaydalar müəyyən etməklə tənzimlənməsi, bu torpaqların icarəyə verilməsi sahəsində mövcud olan problemlərin həlli, eləcə də kənd təsərrüfatı məhsulları istehsalının artırılması məqsədi ilə hazırlanmışdır. Deputat həmkarlarımdan xahiş edirəm ki, bu qanunlara səs verək. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Eldar müəllim. Elmira Axundova.

**E.Axundova.** Ziyafət müəllim, mən təklif edirəm, fasilə edək, çünki hələ 20 məsələ var, bizim də sözümüz çoxdur. 3 nəfər də yazılıb. Burada diabet xəstəsi var, yemək istəyən var. Fasilə etmək lazımdır. Biz tələsirik, ona görə də bəzi məsələlərə diqqət yetirə bilmirik. 22-ci məsələ ilə bağlı mənim çıxışım var. Bəlkə fasilə təyin edək, rahat işləyək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Elmira xanım, bu Sizin fikrinizdir. Amma cənab Sədr hörmətli deputatlara müraciət etdi. Deputatların tam əksəriyyəti təklifi müdafiə etdilər ki, biz fasiləsiz işləyək. Əgər yemək istəyirsinizsə, buyurun, Sizi heç kim saxlamır. Burada problem yoxdur. Əli Məsimli, buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, Ziyafət müəllim. Xahiş edirəm, mənim bu çıxışımı həm də deputat həmkarım Vahid Əhmədovun çıxışı kimi qəbul edəsiniz. Eldar müəllimə təşəkkür edirəm ki, çox vacib dəyişikliklərlə bağlı ətraflı məlumat verdi. Doğrudan da, bu qanunların qəbul edilməsi torpaqlardan istifadənin səmərəliliyinin artırılması istiqamətində irəliyə doğru çox mühüm addım olacaq, eyni zamanda, 2015-ci ildən sonra bu yöndə atılan addımların hüquqi təminatını təmin etmək baxımından böyük əhəmiyyət kəsb edəcəkdir.

Azərbaycanda iqtisadiyyatda işləyənlərin 47 faizə qədəri kənd təsərrüfatında çalışır. Biz onların həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində atılan hər bir addımı müsbət qiymətləndiririk. Bu nöqteyi-nəzərdən burada artıq problem yaradacaq bəzi məqamları önə çəkmək istərdim. Birinci, kənd təsərrüfatına sərmayə artdıqca, monopoliya ora nüfuz etməyə və mənfi rolunu oynamağa başlayıb. Bunu konkret misallarla ortaya qoya bilərik. Məsələn, torpaqların icarəyə verilməsi optimal təsərrüfatların yaradılması baxımından böyük əhəmiyyət kəsb edir, çünki fermerlərin əksəriyyətinin torpaqları 1–2 hektardan ibarətdir. Orada yalnız natural təsərrüfat qurmaq olar, əmtəəlik təsərrüfat qurmaq üçün isə 10 hektardan çox torpaq olmalıdır və məhsuldarlıq da artmalıdır ki, bazara, xaricə məhsul çıxarıla bilsin. Bu nöqteyi-nəzərdən müsbətdir. Amma çox təəssüflər olsun ki, əgər əvvəllər həmin torpaqlar fermerin icarəsində idisə, o, 80 manat icarə haqqı verirdi. İndi hər hektara 80 manat icarə ödəyən fermerə həmin torpaqları hansı yollarlasa 150 manata verirlər. Həm də artıq fermer deyil, həmin o işbaz, monopolist və sairə oradan subsidiya alır. Beləliklə, 80 manata icarə haqqı verib təsərrüfatını inkişaf etdirməli olan kəndli ağır vəziyyətə düşür, həm subsidiya ala bilmir, həm də buradan başqası 240 manatı xalis şəkildə isə 120 manatı zəhmətsiz, heç bir iş görmədən əldə edir. Bu, yoxlanılmış rəqəmdir. Hesab edirəm ki, əlaqədar orqanlar bu məsələyə diqqət yetirməli, monopoliyanı kənd təsərrüfatına buraxmamalıdırlar. Harada monopoliya varsa, o sahənin axırı yoxdur.

İkinci, iri, orta və kiçik təsərrüfatların effektiv kombinasiyası əsasında yeni iri təsərrüfatların yaranması kənd təsərrüfatının inkişafına xidmət etməlidir. İri təsərrüfatlar

yaxşı işləyən xırda təsərrüfatları sıradan çıxarmamalıdır və bu istiqamətdə bəzi addımlar atılır. Hesab edirəm ki, bu, bir-birini tamamlamış formada getməlidir. Nəzarət mexanizmi elə qurulmalıdır ki, kənd təsərrüfatının, Ziyad müəllim, icarə haqları büdcəyə getsin. Rəqəmlərə baxın: bunlar həddən artıq kiçik rəqəmlərdir. Hesab edirəm ki, əgər mexanizm normal qurulsa, kənd təsərrüfatının vəsaiti büdcənin xeyli dərəcədə artmasında mühüm rol oynayar.

Bir də, bizdə sovet dövründən yaxşı formada ixtisaslaşma var: hamı bilir ki, tərəvəz məhsulları cənubda – Lənkəranda, alma, meyvə və sair Quba–Xaçmazda, fındıq Şəki–Zaqatalada yaxşı bitir. İndi heç bir elmə əsaslanmayan yeni təsərrüfatlar yaradılır, on illiklərlə özünü doğruldan həmin ixtisaslaşma nəzərə alınmır, onsuz da zəif olan əmək məhsuldarlığı isə bir sıra fəsadlara gətirib çıxarır.

Azərbaycanın kənd təsərrüfatı xaricə ildə 500–600 milyon deyil, 5–6 milyard dollarlıq məhsul çıxara bilər. Qeyd etdiyimiz istiqamətlərdə işlər düzgün qurulsa, fermerlərə həm qanunla qadağan olunmayan bütün sahələrdə imkanlar verilsə, həm də öz istehsal etdiyi məhsulu xaricə çıxarmağa şərait yaradılsa, Azərbaycan öz əhalisini yerli məhsulla təmin edə bilər və əvvəl 3 milyard dollarlıq, sonra isə 5–6 milyard dollarlıq məhsulu xaricə çıxarar. Bu isə istehsalla məşğul olan əhalinin 47 faizinin həyat səviyyəsinin yaxşılaşması, özünü və ailəsini yüksək səviyyədə təmin edib yaxşı yaşaması deməkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Sağ olun, Ziyafət müəllim. Bizdə Qanunun 10-cu maddəsi "Torpaqların icarəyə verilməsinin ümumi qaydaları" adlanır. Onun beşinci hissəsində deyilir: "Dövlət torpaqlarının torpaq müsabiqələri və ya

hərracları vasitəsi ilə icarəyə verilməsini müvafiq icra hakimiyyəti orqanı həyata keçirir”. Kənd təsərrüfatı torpaqları da dövlət torpaqlarıdır. Belə çıxır ki, biz artıq müsabiqədən və hərracdan kənar bu torpaqların icarəyə verilməsi barədə düşünürük. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 45–47-ci maddələrinə görə, bu tipli layihələr korrupsiyaya yol açan halların ola biləcəyi üçün kriminoloji ekspertizadan keçirilməlidir. Mən sadəcə hörmətli Eldar müəllimə sual vermək istəyirəm ki, biz dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqların müsabiqə və hərrac yolu ilə icarəyə verilməsini, yaxud satışını niyə təşkil etmirik? Yəni buradan artıq belə çıxır ki, 10-1-ci maddədə hansısa xüsusi bir orqana müraciətdən, ərizə verməkdən, ərizədə özü haqqında məlumat verməkdən söhbət gedir, müsabiqədə və hərracda iştirakla bağlı müraciətdən söhbət getmir. Buna sadəcə aydınlıq gətirmək istərdim. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov.

**H.Məmmədov.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Mən qısaca demək istəyirəm. Maddə 34-də belə bir ifadə var: “daha qiymətli torpaqların kənd təsərrüfatı və meşə təsərrüfatı dövriyyəsindən əsassız çıxarılması”. Düşünürəm ki, “daha qiymətli” sözü burada yerində deyil, “yararlı” və ya “kənd təsərrüfatına yararlı” sözləri olsa, daha doğru olar. Çünki “qiymətli” və “daha qiymətli” bazar predmeti olan sözlərdir, yalnız alğı-satqı prosesində istifadə oluna bilər.

İkinci. Yenə 34-cü maddənin 7-ci bəndində qeyd olunur ki, “torpaqların tənəzzülə uğramadan və dağılmadan qorunması”. Torpaq tənəzzülə uğraya bilməz. “Tənəzzül” sözü “tərəqqi” sözünün antonimidir. Əgər torpaq tərəqqi

edə bilmirsə, deməl, tənəzzül də edə bilməz. Tənəzzül dağılma, geridə qalma deməkdir. Bu da insana və insan əli ilə qurulan təsisata aid olan bir ifadədir. Mən düşünürəm ki, "eroziyası" ola bilər.

**Yerdən.** *(Eşidilmir.)*

**H.Məmmədov.** Tamamilə doğrudur, digər uyğun söz tapmaq olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Eldar müəllim, doğrudan da, bu, ciddi məsələdir. Məsələn, torpağın tənəzzülə getməsi. "Tənəzzül" sözü, məlumdur ki, xüsusi ismə aiddir, yəni insana aid olan məsələdir. Ona görə baxsanız, pis olmaz, xahiş edirəm.

Bir də, yeri gəlmişkən, Eldar müəllim, mən baxıram ki, dövlət torpaqlarının icarəyə verilməsi ilə bağlı çıxışlar qurtardı.

Bu yaxınlarda mənim qəbul günüm idi. Bir neçə şəxs bu məsələni çox ciddi şəkildə qaldırdı. Biz bəlkə də buna fikir vermirik, amma doğrudan da, bu problem artıq yetişib və rayonlarda narahatlıq doğurur. Söhbət otlaqlardan gedir, kövşən yerləri deyirlər, belə deyək. Aydındır ki, özəl mülkiyyətdə olan torpaq sahəsi var, o özəlləşdirilibdir, o əkin sahəsinə, təbii ki, heç kim buraxılmayacaq. Amma örüş yerləri, otlaq yerləri var. Biz dövlət mülkiyyətini icarəyə verəndə, təbii ki, onların dövriyyəsi azalacaq. Bəs deyək ki, kimsə xırda buynuzlu, iri buynuzlu mal saxlayır. Sabah mal-qarasını örüşə hara çıxarsın? Yəni dövlət əhəmiyyətli torpaqların icarəyə verilməsi zamanı bu məsələlər nəzərə alınırmı, Eldar müəllim? Mən xahiş edirəm, bu məsələyə aydınlıq gətirin.

**E.İbrahimov.** Çox sağ olun, Ziyafət müəllim. Mən hörmətli həmkarlarıma dərin təşəkkürümü bildirirəm ki, hamısı çox haqlı olaraq fikirlər söylədilər. Əlbəttə, hörmətli Əli müəllimin də fikirlərinə şərikəm, Qüdrət

müəllim də burada torpaqların müsabiqə yolu ilə, hərrac yolu ilə verilməsindən danışdı. Əslində bu indiki variant müsabiqədən, hərracdan da asandır. Yəni siz deyən kimi, dövlət torpaqları boşdur, kimsə o torpaqları icarəyə götürmək istəyir, ərizə yazır, ərizə ilə əlaqədar sənədlər verir, müvafiq icra hakimiyyəti baxır. Onun xəbəri olmadan həmin müvafiq icra hakimiyyəti yuxarı icra hakimiyyəti ilə razılaşır, yəni nazirliklə, bu işə baxan, torpaq məsələləri ilə məşğul olan təşkilatla məsələni həll edir.

Məsələ necə həll olunur? Ya hə, ya da yox. Səbəbi nədir, niyə həll olunmur, yaxud səbəbi nədəndir. Siz də çox haqlı olaraq dediniz ki, mal-qaranın örüşlərdə otlaması ilə bağlı çox böyük narazılıqlar var. Yəni indi torpaqlar hamısı icarəyə verilir, bəs malımızı harada otaraq? Bəli, bu var, Ziyafət müəllim. Bu da müvafiq icra hakimiyyətinin işidir ki, bunları tənzimləsin. Bəli, icarəyə verilir, burada nə əkilir, yaxud icarəyə verilir, otlaq sahə olacaq, mal-qara otlayacaq. Yəni bu məsələlərə hökumət baxır. Elə bilirəm ki, inşaallah bunlar müsbət həll olunacaqdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Eldar müəllim. Əgər başqa çıxış etmək istəyən yoxdursa, 4-cü məsələyə – "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.14 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti 5-ci məsələ – Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.15 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

6-cı və 7-ci məsələlər də 1 məktubla daxil olub. "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi və "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi. Eldar müəllim, buyurun.

**E.İbrahimov.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Hörmətli deputat həmkarlarım, bu təqdim olunan qanun layihəsində "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Qanunun "Dövlət torpaq kadastrı məlumatlarından istifadə" adlanan 11-ci maddəsinin birinci hissəsinin doqquzuncu abzasının sonunda nöqtə işarəsinin nöqtəli vergül işarəsi ilə əvəz edilməsi və həmin hissəyə "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "notariat hərəkətlərinin aparılması və bununla əlaqədar xidmətlərin göstərilməsində" məzmununda onuncu abzasın əlavə edilməsi təklif olunur.

Nəzərinizə çatdırıram ki, "Notariat haqqında" Qanuna

keçən ilin noyabrında edilmiş dəyişikliklə notariuslara və notariat hərəkətləri aparan digər vəzifəli şəxslərə notariat hərəkətlərinin aparılması və bununla əlaqədar xidmətlərin göstərilməsi üçün müvafiq təşkilatlardan dövlət torpaq kadastrının məlumatlarını almaq hüququ verilmişdir. Bu dəyişiklik "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Qanunu "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli Qanununa uyğunlaşdırmaq məqsədi ilə hazırlanmışdır.

Hörmətli Ziyafət müəllim, hörmətli deputat həmkarlarım, müzakirə etdiyiniz qanunlarla əlaqədar yeri gəlmişkən, deyim ki, Dövlət Əmlak Komitəsi tərəfindən 255 min hektara qədər istifadə olunmayan torpaqlar artıq araşdırılıb, yer quruluşu baxımından göydən peyk vasitəsi ilə çəkilib, hətta o torpaqların təyinatına uyğun olaraq gələcəkdə nələrin əkilə biləcəyi aydınlaşdırılıb. Taxıl, üzüm, yaxud tərəvəz əkmək olar. Bu məsələ ilə bağlı işlər yüksək səviyyədə gedir. Allah qoysa, biz bu günlərdə Dövlət Əmlak Komitəsi ilə bu məsələlərin təqdimatını keçirməyə hazırlaşırıq. Mən həmkarlarıma da deyəcəyəm, kimin arzusu olsa, iştirak etsin və torpaqlarla əlaqədar məsələ aydın olsun. Yəni 255 min hektar torpaq yenicə istifadəyə verilib, onun camaata verilməsi, mal-qaraya verilməməsi məsələlərinə, təbii ki, müvafiq icra hakimiyyəti gələcəkdə baxacaq. Xahiş edirəm ki, buna da səs verək.

**Sədrlik edən.** Sağ olun, Eldar müəllim. Əli müəllim, əlavəniz varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda xahiş edirəm, 6-cı məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.18 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

7-ci məsələyə – "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsinə münasibət bildirməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 14.19 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

8-ci məsələ. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi. Buyurun, Eldar müəllim.

**E.İbrahimov.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Hörmətli deputat həmkarlarım, bu qanun qısa olsa da, çox əhəmiyyətlidir. Təqdim olunan qanun layihəsində Torpaq Məcəlləsinin "Torpaqların mühafizəsinin məqsədi və vəzifələri" adlanan 34-cü maddəsinə aşağıdakı məzmunda 5-1-ci bəndin əlavə edilməsi təklif olunur: 5-1-də deyilir: "Əkin yerinin yandırılması qadağandır". Bu, əvvəllər də olub, digər qanunlarda da dəyişiklik edilib. Bu dəyişiklik "Torpaqların münbitliyi haqqında" və İnzibati Xətalar

Məcəlləsində dəyişiklik edilməsi haqqında 2017-ci il 15 dekabr tarixli qanunlara uyğun hazırlanmışdır.

Qeyd edilən qanunlara əsasən əkin yerinin yandırılması qadağan olunmuş və buna görə inzibati məsuliyyət, cərimə nəzərdə tutulmuşdur. Hesab edirəm ki, qısa və aydın fikirdir. Səsə qoyaq.

**Sədrlik edən.** Tamamilə düz deyirsiniz, Eldar müəllim. Bir müddət əvvəl hansısa qanunda əkin yerləri ilə bağlı dəyişiklik etdik. Mən bununla tamamilə razıyam. Təkcə ona görə yox ki, əkin yerlərində yanğın nəticəsində haradasa bir yanğın əmələ gələ bilər. Düz deyirsiniz, biçindən sonra torpaqda nə qalırsa, artıq gübrəyə çevrilir və torpağa qüvvət verir. Onu yandırandan sonra nə gücü olacaq?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun, Eldar müəllim. Aqil Abbas, buyurun.

**A.Abbas.** Təşəkkür edirəm, Ziyafət müəllim. Mənə bir az aydın olmadı. Mən də kəndçi balasıyam və kənddə böyümüşəm. Məmməd Arazın yaxşı bir şeiri var: “Torpağa kül tökməsən, dönəcək külə torpaq”. Yandırılma məsələsini başa düşmədim. Torpağın altında müəyyən ziyanvericilər var. Həm onlar, həm də saman və sair yanır, o da gübrəyə çevrilir. Mən təsərrüfat haqqında çox bilirəm, amma o yanğının ziyanı nədir, bilmədim. Təşəkkür edirəm.

**Sədrlik edən.** Aqil müəllim, mənim yadımdadır, Eldar müəllim, biz keçən sessiyada bu dəyişikliyi edəndə bir neçə mütəxəssislə bu barədə söhbət eləmişdim. Əvvəla, torpağın üz qabığı var, onun yanması olduqca ziyandır. İkinci bir tərəfdən, samanın torpaqla qarışan zaman verdiyi mineral effekt yananda olmur. Yəni saman yanır, onun verdiyi effekt çox zəifdir, amma diri saman ki yanmır, torpağa qarışır, o artıq torpağı gücləndirir, torpağın

qüvvəsini artırır. Bunun sadə bir mənası var və bu cür də izah elədilər. Təklif də onlardan gəlmişdi. Bunun elmi əsası var, Aqil müəllim. O ki qaldı ziyanvericilərlə bağlı məsələ, ziyanverici elə bir şeydir ki, yandırmaqla düzələn deyil, qaçıb gedirlər. Onlarla mübarizənin ayrıca üsulları var.

Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək. 8-ci məsələ.

| **Səsvermənin nəticələri** | (saat 14.23 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 9, 10, 11, 12, 13, 14, 15-ci qanun layihələri bir məktubla daxil olub, ona görə etiraz eləmirsinizsə, sözü verək komitə sədri Ziyad müəllim Səmədzadəyə. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə**. Cənab Prezidentin imzası ilə bir məktubda daxil olan "Banklar haqında", "Poçt haqqında", "Qiymətli metallar və qiymətli daşlar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" qanunlarda dəyişikliklər edilir. Bu dəyişikliklərin mahiyyəti nədən ibarətdir? Bu dəyişikliklər həmin qanunları "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2017-ci il 12 iyul tarixli Qanuna uyğun-

laşdırmaq məqsədi daşıyır. Adı çəkilən qanunda "benefisiar" anlayışı "benefisiar mülkiyyətçi" anlayışı ilə əvəz edilmişdir ki, bu da qanundakı anlayışların beynəlxalq təşkilatların müvafiq sənədlərinə uyğunlaşdırılması zərurətindən irəli gəlmişdir. Həmçinin qanunun bir sıra maddələrində "eyniləşmə tədbirləri" ifadəsi "eyniləşdirmə və verifikasiya tədbirləri" termini ilə əvəz edilmişdir.

Qeyd olunanlara əsasən altı qanunda dəyişikliklər edilməsi təklif olunur. Bütün qanunlarda eyni dəyişiklikdir, ona görə millət vəkillərindən onlara səs vermələrini xahiş edirəm.

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***O.Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Əgər başqa təklif yoxdursa, 9-cu məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.25 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

10-cu məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.26 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. 11-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.26 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
12-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.27 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Sağ olun. 13-cü məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.27 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. 14-cü məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.28 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Sağ olun. 15-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.28 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 16-cı, 17-ci məsələlər bir zərfdə gəlib. 16-cı məsələ "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, qida təhlükəsizliyi sahəsində idarəçiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının səlahiyyətlərinin dəqiqləşdirilməsi məqsədi ilə 2018-ci il fevralın 23-də "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında", "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası qanunlarına dəyişikliklər, eləcə də Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi

haqqında Əsasnaməyə dəyişikliklər və əlavələr edilmişdir. Adı çəkilən normativ hüquqi aktlara əsasən Agentliyə bir sıra səlahiyyətlərlə yanaşı, ölkədə qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi baxımından qeydiyyata alınması və onların dövlət reyestrinin aparılması, eləcə də qida təhlükəsizliyi, baytarlıq və fitosanitar sertifikatlarının verilməsi səlahiyyətləri də verilmişdir.

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi bu məqsədlərə görə hazırlanmışdır. Millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.30 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

17-ci məsələ. "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklik edilməsi barədə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi də "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının qanun-

larında dəyişiklik edilməsi barədə 2019-cu il 23 fevral tarixli qanunlara, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli Fərmanında dəyişikliklər edilməsi barədə" 2018-ci il 1 may tarixli Fərmana uyğun olaraq hazırlanmışdır və sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısının, 27, 47 və 74.1-ci maddələrdə göstərilən icazələrin dəqiqləşdirilməsini nəzərdə tutur. Hər iki qanun layihəsi 2018-ci il iyulun 1-dən qüvvəyə minəcəkdir. Ona görə millət vəkillərindən bu dəyişikliyə də səs verməlarini xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.32 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Sağ olun.

Gündəliyin 18-ci məsələsi İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədədir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli**. Çox sağ olun, cənab Sədr. 18 və 19-cu məsələlər bir məktubla daxil olub. Məsələ burasındadır ki, biz 2017-ci ildə "Pasportlar haqqında" Qanunda pasportun itirilməsi və qəsdən korlanmasına görə inzibati məsuliyyəti aradan qaldırdıq. Çünki pasport itibsə, vətəndaş onu rüsumunu ödəmək şərti ilə yenidən ala bilər. Bu, heç bir məsuliyyətə gətirib çıxarmamalıdır. Məhz buna görə də

təklif olunur ki, İnzibati Xətalar Məcəlləsinin 25.3-cü maddəsi çıxarılsın. Çünki bu hal xaricdə diplomatik nümayəndə heyətləri və konsulluqlar tərəfindən təsdiq olunan inzibati cərimələrə həsr olunmuşdur. Amma bir daha vurğulamaq istəyirəm ki, artıq belə bir məsuliyyət yoxdur. Bu 19-cu məsələ  Azərbaycan Respublikasının Konsul Nizamnaməsi ilə üzvi surətdə bağlıdır. Bu barədə Səməd müəllim yəqin məlumat verər.

**Sədrlik edən.** 18-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.34 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

19-cu məsələ. Azərbaycan Respublikasının Konsul Nizamnaməsinə də dəyişiklik edilməsi barədə. Buyursun Səməd Seyidov.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, Oqtay müəllim. Əli müəllim artıq bu məsələni izah etdi, əlavə izaha da ehtiyac yoxdur. Sadəcə, mən hörmətli həmkarlarımdan xahiş edərdim, nəzərə alsınlar ki, paylanmış kağız variantında 38-ci maddənin çıxarılması nəzərdə tutulur. Əslində isə burada 38.1-ci maddə ləğv edilir. Bu, həmin dəyişikliklərə tam uyğun olan texniki bir məsələdir. Əli müəllim də izah elədi ki, konsulluqlarla əlaqədar nə üçün məhz 38.1-ci maddə ləğv

olunur. Ona görə buna səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, 19-cu məsələyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 20-ci məsələ "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)" Azərbaycan Respublikası yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyurun, Əli Hüseynli.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli həmkarlar, biz artıq Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı gördüyümüz işlər çərçivəsində o dövrdə yaranmış bir çox orqanların 100 illik yubiley medallarını təsis etmişik. Bunlardan növbətisi Azərbaycan Prokurorluğunun 100 illiyi yubiley medalının təsis edilməsi ilə bağlı cənab Prezident tərəfindən təklif olunmuş qanun layihəsidir. Bu da təsadüfi deyil. 1918-ci il oktyabrın 1-də Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının qərarı ilə Bakı Dairə Məhkəməsi nəzdində milli prokurorluq orqanları yaradılmışdır. O zaman prokurorluq məhkəmə sisteminin tərkibində fəaliyyət göstərirdi. Bunu nə üçün xatırlatdım? O dövr üçün, elə indi də bu, çox mütərəqqi bir addımdır.

Təsəvvür edin ki, 100 il bundan əvvəl prokurorluq sistemi məhz hüquqi dövlət anlayışına, demokratik anlayışa uyğun olaraq məhkəmə sisteminin tərkibində qurulub. Sonrakı dövr – sovet illəri məlumdur. İndi tam məsuliyyətlə demək mümkündür ki, müasir dövrdə də Azərbaycanda prokurorluğun məhkəmə sisteminin tərkibində olması, ikincisi, bir sıra postsovet ölkələrindən fərqli olaraq, ümumi nəzarət funksiyasının olmaması çox mütərəqqi haldır və hesab edirəm ki, prokurorluq orqanları da Xalq Cümhuriyyəti dövründə əsası qoyulmuş demokratik ənənələri müasir dövrdə davam etdirirlər.

Təqdim olunan yubiley medalı həm Azərbaycanın milli atributlarını, həm də prokurorluğun atributlarını özündə əks etdirir. Hesab edirəm ki, həm daxili işlər orqanlarının, həm də ədliyyə orqanlarının 100 illiyi ilə bağlı təsis etdiyimiz medallardan sonra prokurorluğun 100 illik yubiley medalının təsis olunması təqdirəlayiq haldır. Burada hansı şəxslərin təltif olunması, medalın taxılma qaydası, orden və medallarla bağlı indiyə qədər müəyyən edilmiş bütün digər məsələlər bizim qanunvericiliyimizə tam uyğundur.

Həmkarlarımızdan bu layihəyə səs vermələrini xahiş edirəm. Hesab edirəm ki, bu, Cümhuriyyətin 100 illiyi ilə bağlı verdiyimiz növbəti qanunvericilik təşəbbüslərindən biridir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.38 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 21-ci məsələ "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun, cənab Sədr. Bu layihə 2016-cı ildə referendum nəticəsində qəbul edilmiş Konstitusiya dəyişikliklərinin qanunvericiliyə tətbiqi ilə bağlıdır. Bilirsiniz ki, Birinci vitse-prezident və vitse-prezident institutları yaradıldı. Təklif olunan layihə Birinci vitse-prezidentin və vitse-prezidentin köməkçilərinin "Dövlət qulluğu haqqında" Qanunun təsnifatında yer alması məsələsidir.

İkinci məsələ. Bilirsiniz ki, Konstitusiyamızda "milliyyət" ifadəsi tamamilə düzgün olaraq "etnik mənsubiyyət" ifadəsi ilə əvəz edildi. Bu düzəliş "Dövlət qulluğu haqqında" Qanunun dövlət qulluğuna qəbul edilmək hüququna həsr edilən maddəsində də edilir. Yəni qanun layihəsi Konstitusiyaya uyğunlaşdırma xarakteri daşıyır.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.40 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

22-ci məsələ. “Yol hərəkəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli həmkarlar, 1968-ci ildə Vyanada imzalanmış “Yol hərəkəti haqqında” Konvensiyaya Azərbaycan da qoşulub. Ondan irəli gələn bir sıra tələblər var. Bu tələblər qısaca ondan ibarətdir ki, velosiped, kvadrasikl kimi müasir nəqliyyat növləri də artıq “Yol hərəkəti haqqında” Qanunla tənzimlənməlidir.

İkincisi, sürücülük vəsiqələri ilə bağlı yeni tələblər var. Bu yeni tələblərin Azərbaycanda da tətbiq olunması imkan verəcək ki, vətəndaşlarımız sürücülük vəsiqəsindən dünyanın bütün ölkələrində sərbəst istifadə etsinlər. Sizə təqdim olunmuş arayışda göstərilib ki, bir sıra dövlətlər, bizə qonşu olan ölkələr də artıq müasir sürücülük vəsiqələrindən istifadə edirlər.

Müasir sürücülük vəsiqələrinin dəyişdirilməsi prosesi necədir? Hesab edirəm ki, qanunun qüvvəyə minməsi ilə bağlı müddəa çox mütərəqqidir. 2019-cu il yanvarın 1-dən qanunun qüvvəyə minməsi nəzərdə tutulur. Bununla yanaşı, köhnə vəsiqələr etibarlılıq müddətləri bitənə qədər qüvvədədir. Sürücülük vəsiqəsi olan şəxslər üçün heç bir narahatlıq gözlənilmir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elmira Axundova.

**E.Axundova.** Hörmətli Sədr, hörmətli həmkarlarım, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda edilən dəyişikliklər yerində atılmış addımdır və qanun çox yüksək səviyyədə hazırlanıb. Doğrudan da, 2011-ci ildə Vyana Konvensiyasında edilmiş bu dəyişikliyə ehtiyac vardır, çünki Azərbaycan Respublikasının sürücülük vəsiqələri bu dəyişikliyin bəzi tələblərinə uyğun olmadığı üçün vətəndaşlarımız xarici dövlətlərdə nəqliyyat vasitələrinin idarəsində çətinliklərlə qarşılaşırdılar.

Mən bu qanuna aid olan bir məsələyə də diqqətinizi çəkmək istərdim. Son zamanlar respublikamızda avtomobillərin yollarda rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədi ilə yüksək standartlara cavab verən müasir avtomobil yolları inşa edilərək vətəndaşların istifadəsinə verilmişdir. Bununla bərabər, yollarda baş verə biləcək qəzaların qarşısının alınması və nəzarət tədbirlərinin daha da gücləndirilməsi üçün Milli Məclisdə biz mütəmadi olaraq "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər edirik. Lakin bütün bunlara rəğmən avtomobil qəzalarının sayı gündən-günə artır. Əfv komissiyasının üzvü kimi iclaslarda iştirak edərkən əlimdən yüzlərcə müraciət keçmişdir. Həmin müraciətlərin bir çoxu avtomobil qəzalarına aiddir. Araşdırarkən məlum olur ki, bu qəzaların baş vermə səbəbləri yol hərəkəti qaydalarının kobud surətdə pozulması, sərxoş vəziyyətdə sükan arxasında əyləşmə və ən əsası, sürücülük vəsiqəsi olmadan avtomobillərin idarə edilməsidir. Bir çox hallarda sürücülər 4 nəfərlik minik avtomobilinə 8 nəfəri mindirirlər, sonuncu belə hadisələrdən birində isə traktor qoşqusunda insan daşıyaraq onların həyatını təhlükəyə atırlar. Nəticədə həddindən artıq yüklənən minik avtomobili müvazinətini itirir və qəza qaçılmaz olur.

Statistika göstərir ki, hər il ölkəmizdə orta hesabla 2000-ə yaxın yol-nəqliyyat hadisəsi qeydə alınır, 300-ə yaxın insan həlak olur, 600 nəfərə yaxın insan isə xəsarət alaraq yaralanır. Təsəvvür edin ki, son 25 ildə ölkədaxili avtomobil yollarında 66 mindən çox yol qəzası hadisəsi qeydə alınıb, nəticədə 23 min nəfərdən çox insan ölüb, 74 min nəfərdən çox insan isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Çox dəhşətli mənzərədir və bu itkilər

Qarabağ müharibəsində baş verən itkilərə bərabərdir, hətta deyərdim ki, əsl soyqırımdır.

Sürücülük vəsiqəsi olmayan şəxslər tərəfindən avtomobil idarə edilməsi hallarına, əsasən, rayon yerlərində rast gəlinir. Ona görə də düşünürəm, vaxtı çatıb ki, Dövlət Avtomobil Müfəttişliyi geniş miqyaslı tədbirlərə başlayaraq, bölgələrdə adına nəqliyyat vasitəsi olan bütün şəxsləri yoxlasın. Həmin şəxslərin sürücülük vəsiqəsinin olub-olmaması aşkarlanmalı və bu istiqamətdə profilaktik tədbirlər görülməlidir.

Eyni zamanda, qanunda indi edilən dəyişiklik imkan verir ki, biz yeni sürücülük vəsiqəsi veriləndə bu işlərə daha məsuliyyətli yanaşaq, imtahanların keçirilməsində şəffaflığı təmin edək. Yollarda vəziyyəti köklü surətdə dəyişdirməyin, sürücülərin və piyadaların kütləvi qırğınına son qoymağın vaxtı çatıb. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.46 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

23-cü məsələ. Hörmətli millət vəkilləri, bildiyiniz kimi, cənab Prezidentin sərəncamı ilə Milli Məclisin Gənclər və idman komitəsinin sədri icra strukturuna keçirildi. Bununla əlaqədar komitənin sədr müavini hörmətli Ülvi

Quliyevin həmin komitəyə sədr seçilməsi təklif olunur.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Başqa təklif yoxdur ki? Xahiş edirəm, məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.47 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi. Ülvi müəllim, təbrik edirik və uğurlar arzulayırıq!

Sonuncu 24-cü məsələ – Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında qanun layihəsi barədə (ikinci oxunuş). Buyursun Kamran Nəbizadə.

**K.Nəbizadə,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi sədrinin müavini.*

Hörmətli millət vəkilləri, ikinci oxunuşun tələblərinə görə, qanun layihəsi mayın 8-də bizim komitəmizin iclasında müzakirə edildi və baxılması üçün Milli Məclisin iclasına tövsiyə olundu. Birinci oxunuşdan sonra millət vəkilləri və mütəxəssislər tərəfindən bu qanun layihəsinə bəzi təkliflər irəli sürüldü. Bu təkliflərin çoxu redaktə xarakteri daşıyırdı. Ümumilikdə desək, qanunun bəzi maddələri və bütövlükdə preambulası kifayət qədər redaktə olunmuşdur, əsas anlayışlar maddəsinə ətraf mühitə təsirin qiymətləndirilməsi, yəni qısa olaraq ƏMTQ üzrə təşkilat anlayışı əlavə edilmişdir. Ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə təşkilat bu Qanunla müəyyən edilmiş

tələblərə cavab verən ƏMTQ və SEQ (Strateji Ekoloji Qiymətləndirmə) üzrə qiymətləndirməni aparan (təşkil edən) ixtisaslaşmış hüquqi şəxsdir. Qanunda ətraf mühitə təsirin qiymətləndirilməsinin əlavədə verilən məhdud sayda fəaliyyət növləri üçün məcburi olması nəzərdə tutulur. Ekoloji qiymətləndirmə institutunun digər fəaliyyət sahələrində də istifadəsi məqbul sayılaraq 4-cü maddənin 1-ci bəndinə aşağıdakı məzmunda cümlə əlavə olunur: "Ətraf mühitə təsirin qiymətləndirilməsi digər fəaliyyət növlərinə münasibətdə könüllüdür və təşviq olunur".

Millət vəkillərinin təkliflərinə əsasən 4.8-ci maddəyə aşağıdakı məzmunda müddəalar əlavə olunur:

Nəzərdə tutulan fəaliyyət nəticəsində əmələ gələn istehsalat və məişət – fekal tullantı sularının idarə olunmasının təmin edilməsi, atmosfer havasına atılan çirkləndiricilərin təyini və yayılma areallarının müəyyənləşdirilməsi, nəzərdə tutulan fəaliyyətin yaşayış massivlərinə və ekoloji həssas ərazilərə, o cümlədən tarixi abidələrə təsirinin öyrənilməsi".

4.16-cı maddə yeni redaksiyada verilir:

"Ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə təşkilat və onu təmsil edən ƏMTQ üzrə qiymətləndirici ətraf mühitə təsirin qiymətləndirilməsi və strateji ekoloji qiymətləndirmə sənədlərinin sifarişçisinin tabeliyində ola bilməz".

5.1-ci maddəyə belə bir cümlə əlavə edilir:

"Qiymətləndiricilər qrupu milli və ya beynəlxalq mütəxəssislərdən ibarət ola bilər".

Strateji ekoloji qiymətləndirmə prosesinin xüsusiyyətlərinin sadalandığı 8.1-ci maddənin sonuna yeni bir müddəa əlavə olunur:

"Müvafiq icra hakimiyyəti orqanı tərəfindən qərarvermə və nəticələrin monitorinqi mərhələsi". Digər bir

təklifə əsasən qanunun 11.0.2-ci maddəsi aşağıdakı redaksiyada verilir:

"Nəzərdə tutulan fəaliyyət bələdiyyənin ərazisində həyata keçirildikdə ƏMTQ sənədinin hazırlanması üçün tələb olunan zəruri məlumatları təqdim etmək".

Qanun layihəsi ikinci oxunuşa hazırlanan zaman millət vəkillərinin təklifləri nəzərə alınmışdır və transsərhəd təsirlərin qiymətləndirilməsini tənzimləyən müddəalar daha təkmil şəkildə verilmişdir. Belə ki, qanunun ƏMTQ sahəsində sifarişçinin vəzifələrini müəyyən edən 12.2.5-ci maddəsinin yeni redaksiyası aşağıdakı kimidir:

"Nəzərdə tutulan fəaliyyətin həyata keçirilməsi zamanı müəyyən edilən transsərhəd təsirlərin qiymətləndirilməsinin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə uyğun tənzimlənməsini təmin etmək".

Millət vəkillərinin təkliflərinə əsasən qanunun əlavəsi kifayət qədər redaktə olunmuşdur və iki növ fəaliyyət əlavə olunmuşdur: gücü 10 meqavattdan çox olan su elektrik stansiyalarının layihələndirilməsi və külək elektrik stansiyalarının (külək generatorları parklarının) layihələndirilməsi.

Hörmətli millət vəkilləri, qanun layihəsinə ikinci oxunuşda səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli millət vəkilləri, bu, ikinci oxunuşdur, ilk növbədə qanun layihəsinə əsas kimi səs verək. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.52 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Əsas kimi qəbul edildi. Buyursun Sona Əliyeva.

**S.Əliyeva.** Hörmətli cənab Sədr, təşəkkür edirəm. Dəyərli həmkarlarım, qanun layihəsi haqqında fikirlərim kifayət qədər yüksəkdir, sizi də bu qanuna səs verməyə dəvət edirəm və düşünürəm ki, qanun kifayət qədər təkmil, dövrün tələblərinə uyğun, şəffaf bir fəaliyyətin qurulmasına yönələn hüquqi bazaya malikdir. Sadəcə, məqsədəmüvafiq olarsa, kiçik bir dəqiqləşdirmə ilə bağlı öz təklifimi vermək istərdim. Qanun layihəsinin bir neçə maddəsində "bitki və heyvanlar aləmi" anlayışının "canlılar aləmi" anlayışı ilə əvəz olunmasının tərəfdarıyam, çünki canlılar aləmi təkcə bitkilərdən və heyvanlardan ibarət deyil. Biz bilirik ki, canlılar aləminə göbələklər, eyni zamanda, mikroorqanizmlər də aiddir. Bu, qanunun terminoloji baxımdan dəqiqləşməsinə xidmət edir. Daha geniş anlamda digər canlı orqanizmlərin də təbiətdə və biosferdə oynadığı mühüm rol nəzərə alınaraq yaxşı bir dəyişiklik ola bilərdi.

4.8.6-cı maddədə belə bir ifadə işlənir: su, torpaq, atmosfer havası, meşə, bitki, heyvanlar aləmi, yerin təkindən faydalı qazıntılar və digər təbii ehtiyatlardan istifadənin əsaslandırılması. Burada da təklif edərdim ki, "meşə" sözü "ekosistem" sözü ilə əvəz olunsun. Çünki ekosistem daha geniş anlayışdır və bu söz özündə göl, dəniz, meşə, düzənlik kimi anlayışları birləşdirir. Bunun dəqiqlik baxımından əhəmiyyətli olacağına inanıram. Eyni zamanda, "bitki və heyvanlar aləminin qorunması" deyil,

“canlılar aləminin qorunması” daha müvafiq olardı.

Təbiət sahəsində işləyən adamlar, ümumiyyətlə, təbiət elmləri ilə məşğul olan adamlar bilir ki, əslində mikroorqanizmlərin təbiətə digər canlılardan daha çox faydası var. Çünki onlar çürümə proseslərində, torpağın əmələ gəlməsində əsas rolu oynayan orqanizmlərdən biridir.

Bundan başqa, qanun layihəsinin əsas məzmununa aid olmasa belə, məni çox narahat edən bir məsələyə toxunmaq istəyirəm. Bu qanun qüvvəyə mindikdən sonra çox istərdim ki, Kür çayının ekoloji ekspertizası aparılsın və transsərhəd təsirlə əlaqədar onun ekoloji acınacaqlı vəziyyəti barədə beynəlxalq qurumlara, eləcə də YUNESKO-ya və ATƏT-ə təkrar müraciətlər edilsin. Çünki Kür çayının ekoloji durumu kifayət qədər ağırdır və orada nitratlar, nitritlər, fenollar, ağır metal duzları, yuyucu tozlar və zərərli bakteriyalar normadan yüz dəfə artıqdır. 2000-ci ildə Gürcüstan əhaliyə texniki məqsədlər üçün belə Kür çayından istifadəni qadağan edib. Nəzərə alaq ki, Azərbaycanın kənd təsərrüfatı sahələrinin böyük əksəriyyəti Kür çayından götürülən su ilə suvarılır, həmin su orada yetişdirilən bitkilərə və oradan əldə edilən ərzağın tərkibinə daxil olur. Bu, həm qida təhlükəsizliyi, həm də əhalinin sağlamlığı baxımından çox önəmli bir məqamdır. 4-cü maddədə təbiətdən səmərəli istifadə və onun bərpası, istehsal və xidmət prosesində yaranan tullantıların təkrar istifadəsi, onların kompleks emalı, utilizasiyası ilə bağlı bir bənd vardır. Elə büdcə müzakirələrinin getməsi ilə əlaqədar təklif edərdim ki, bölgələrdə təkrar emal və utilizasiya ilə məşğul olan müəyyən zavodların tikintisi hökmən həyata keçirilsin. Bir çox məişət tullantılarının torpaqda çürüməsi yüz illərlə vaxt alır. Bu baxımdan əhalinin demoqrafik göstərici-

lərinin, inkişafla əlaqədar məişət və sənaye tullantılarının kifayət qədər artdığı bir zamanda, düşünürəm, buna çox ehtiyac var. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sona xanım, bu təkliflərinizi yazılı şəkildə komitəyə verin, baxsınlar.

Əgər başqa təklif yoxdursa, – qanun layihəsi 5 fəsil və bir siyahıdan ibarətdir, – I, II, III fəsilləri birlikdə səsə qoyaq. Xahiş edirəm I, II, III fəsillərə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.54 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. IV, V fəsillərə, eləcə də Ətraf mühitə təsirin qiymətləndirilməsi tələb olunan fəaliyyət növlərinin siyahısına, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.58 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram, xahiş edirəm, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.58 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörməli millət vəkilləri, bu, yaz sessiyasının sonuncu iclasıdır, ancaq bir şeyi deyim ki, bizim həmkarlardan 79 nəfərin imzası ilə məktub gəlib, növbədənkənar sessiyalarımız olacaq. O barədə sizə xəbər verəcəyik. İndi isə yaz sessiyasını bağlı elan edirəm.